Uşaqlar heç düşündünüz mü?

–4–

# Dinimizi öyrənək

Harun Yəhya
(Adnan Oktar)

# İçindəkilər

**Giriş**

**Allah hamımızın yaradıcısıdır**

İnsanın yaradılışı

Digər canlıların yaradılışı

Kainatın yaradılışı

Hər şeyi yaradan Allahdır

Allah bütün insanları tale ilə yaratmışdır

**Allah elçilər və kitablar göndərmişdir**

İlk insan və ilk peyğəmbər: Hz. Adəm

Hz. Nuh peyğəmbər

Hz. İbrahim peyğəmbər

Hz. Musa heyğəmbər

Hz. Yunis peyğəmbər

Hz. Yusif peyğəmbər

Hz. Əyyub peyğəmbər

Hz. İsa peyğəmbər

Hz. Məhəmməd peyğəmbər

**Möcüzələrlə dolu Quran**

Kainatın yaradılışı

Kainatın genişləməsi

Orbitlər

Dünyanın kürə formasında olması

Barmaq İzi

**Allah bizdən necə bir əxlaq istəyir?**

Allahı sevmək və Ona güvənmək

Ətrafımıza qarşı göstərməli olduğumuz gözəl əxlaq

**Allaha ibadət**

Dua Allaha daha yaxın olmaq üçün bir vasitədir

**Axirət həyatı nədir?**

Ölümü necə qarşılamalıyıq?

Dünya həyatı müvəqqətidir

Dünyadakı çətinliklər cənnətdəki gözəllikləri daha yaxşı qavramağımızı təmin edər

İnkarçılar üçün cəhənnəm əzabı var

**Son söz**

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində

ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Əziz uşaqlar, bu kitabda sizə çox əhəmiyyətli mövzular barədə danışmaq istəyirik. Amma həqiqətən də üzərində düşünməyinizi və anlamağınızı istədiyimiz çox əhəmiyyətli mövzular...

Hamınız məktəbdə əvvəlcə oxuyub-yazmağı, sonra da rəqəmləri və riyaziyyatı öyrənirsiniz. Bəs sizə; "məktəbə niyə gedirsiniz və bunları niyə öyrənirsiniz" sualını versək, nə deyərsiniz?

Əlbəttə ki, əksəriyyətiniz; "böyüdükdə peşə sahibi olmaq istədiyim üçün məktəbə gedirəm və bunları öyrənirəm" deyərsiniz. Hamınız bir gün böyüyəcəyinizdən əminsiniz. Əslində, bu çox doğru fikirdir. Həqiqətən də siz indi necə ki, böyüklərinizə xala, əmi, baba deyirsinizsə, bir gün sizə də xala, əmi, baba deyə səslənəcəklər. Yəni siz də bir gün böyüyəcəksiniz.

Əlbəttə ki, insanlar müəyyən yaşa qədər böyüyüb, sonra daim o yaşda qalmazlar. Hər insan yavaş-yavaş yaşlanar və vaxtı gəldikdə bu dünyadan ayrılaraq axirətdəki həyatını yaşamağa başlayar. Bütün bunları siz də yaşayacaqsınız. Siz də uşaqlar aləmindən gənclər aləminə, gənclər aləmindən isə xalalar və əmilər aləminə keçəcəksiniz və bir gün nənələrinizin, babalarınızın yaşına çatacaqsınız. Əlbəttə ki, ən sonda axirətdəki həyatınıza başlayacaqsınız.

Yaxşı, indi bir düşünün! Böyüyəcəyiniz zamanlar üçün məktəbə gedirsiniz və yeni məlumatlar öyrənirsiniz. Doğrudur bunlar çox gözəl şeylərdir. Lakin, bu edəcəkləriniz yalnız dünya həyatınız üçün lazımdır. Bəs axirət həyatınız üçün nələr etməlisiniz? Onun üçün də hazırlıq görməlisiniz, bunu heç düşünmüşdünüz mü?

Böyüdüyünüz zaman rahat yaşamaq üçün peşə sahibi olmaq, peşə sahibi olmaq üçün də məktəbə getmək məcburiyyətindəsiniz. Eynilə axirətdə xoşbəxt həyat yaşamaq üçün də müəyyən şeylər etməlisiniz. İlk növbədə elə bu dəqiqə sizi və bütün insanları yaradan Uca Allahı tanımağa və Rəbbimiz olan Allahın nələr etməyinizi və necə davranmağınızı istədiyini öyrənməyə başlamalısınız.

Məhz, bu kitabda sizə, sizi, ananızı, atanızı, dostlarınızı, bütün insanları, bütün heyvanları, bütün canlıları, dünyanı, Günəşi, Ayı, bütün kainatı yaradan Allahın gücünü izah edəcəyik. Onun böyüklüyündən, sonsuz elmindən, etməyimizi və etməməyimizi istədiyi şeylərdən danışacağıq. Unutmayın ki, bu məlumatlar sizin üçün çox əhəmiyyətlidir və sizə çox şey qazandıracaq!

## Allah hamımızın yaradıcısıdır

İnsanların danışarkən içində Allah sözü olan cümlələr işlətdiyini eşidirsiniz. Bunlar ümumiyyətlə; "Allah qorusun", "Allah nəsib eləsə", "İnşaAllah", "Allah bağışlasın", "Allah qəbul etsin" kimi cümlələrdir.

Bu sözlər Allah anıldığı zaman istifadə edilən dua mahiyyətli və ya Allahı ucaldan ifadələrdir. Məsələn, "Allah qorusun" ifadəsi, Allahın sizin və ətrafınızda gördüyünüz canlı-cansız bütün varlıqların üzərində sonsuz güc sahib olduğu mənasını verər. Sizi, ata və ananızı, dostlarınızı pis şeylərdən Allah qoruyar. Bundan ötrü də, bu söz xüsusilə sel və ya bunun kimi arzuolunmaz bir hadisədən bəhs edildikdə tez-tez işlədilər. Bir düşünün, sizcə ananız, atanız və ya sel barədə məlumat sahibi hər hansı bir böyüyünüz seli dayandıra bilərmi? Əlbəttə ki, dayandıra bilməz. Çünki insanın qarşısına belə bir hadisəni çıxardan da, onu dayandırmağa gücü çatan da yalnız Allahdır.

"İnşaAllah" sözü də dilimizdə; "əgər Allah istəsə" mənasını verir. Buna görə də, gələcəyə dair bir istəyimizi və ya niyyətimizi dilə gətirmək istədikdə, mütləq "inşaAllah" deyərik. Çünki gələcəyi ancaq Allah bilər və hər şeyi istədiyi kimi yaradar. Allah istəmədiyi müddətcə heç nə olmaz.

Məsələn, bir dostunuz; "sabah mütləq məktəbə gedəcəyəm" dediyi vaxt səhvliyə yol verər. Çünki Allahın, gələcəkdə onun nələr etməsini istədiyini bilmərik. Bəlkə də, sabah xəstə olub məktəbə gedə bilməyəcək və ya hava pisləşəcəyi üçün məktəblərdə tətil başlayacaq.

Buna görə də gələcəyə dair bir niyyətimizi dilə gətirərkən, "inşaAllah" deməklə Allahın hər şeyi bildiyini, hər şeyin ancaq O istədikdən sonra olacağını, Onun bizə bildirdiyindən başqa heç bir şey bilmədiyimizi əsaslı şəkildə söyləmiş olarıq. Beləliklə də, sonsuz güc və elm sahibi Rəbbimiz olan Allaha qarşı lazım olan hörmətli rəftarı göstərmiş olarıq.

Allah bizə Quran ayələrində belə söyləməli olduğumuzu bildirir. Bunu bizə xəbər verən ayə belədir:

**Heç bir şey barəsində: “Mən onu sabah mütləq edəcəyəm!” demə! Ancaq: “Əgər Allah istəsə!” (“inşallah” de!) Unutduğun zaman Rəbbini yada salıb: “Ola bilsin ki, Rəbbim məni bundan daha yaxın müvəffəqiyyətə nail etsin” de. (Kəhf surəsi, 23-24)**

Belə əhəmiyyətli mövzular barədə indiyə qədər elə də çox şey öyrənməmiş ola bilərsiniz, ancaq bu əhəmiyyətli deyil. Çünki, Allahı tanımaq üçün başqalarının sizə

nəsə söyləməsinə ehtiyac yoxdur. Bunun üçün ətrafınıza baxmağınız və bir qədər düşünməyiniz kifayətdir.

Hər yer Allahı və Onun sonsuz gücünü tanıdan gözəlliklərlə doludur. Sevimli ağ dovşanı, delfinlərin gülər üzlərini, kəpənəklərin qanadlarındakı möhtəşəm rəngləri və ya masmavi dənizi, yamyaşıl meşələri, rəngarəng çiçəkləri və bunlar kimi saymaqla bitməyəcək bir çox gözəlliyi düşünün. Məhz bütün bunları yaradan Allahdır. Gördüyünüz bütün kainatı, dünyanı, canlıları Allah yoxdan yaratmışdır. Bundan ötrü də, yaratdığı bu gözəlliklərə baxaraq, Allahın Ucalığını görə bilərsiniz.

Əlbəttə ki, hər şeydən əvvəl öz varlığımız Allahın varlığının dəlilidir. O zaman əvvəlcə özümüz və Allahın bizi necə mükəmməl şəkildə yaratdığı barədə düşünək.

## İnsanın yaradılışı

Bir insanın necə yarandığını heç düşündünüz mü? Bu suala cavab olaraq; "hər insanın ata və anası var" deyə bilərsiniz. Amma bu qaneedici cavab olmaz. Çünki bu cavab, ilk ata-ananın, yəni ilk insanların necə yaranmış olduğunu izah etmir. Sizə, bu mövzu ilə əlaqədar məktəbdə və ya ətrafınızda bəlkə bəzi şeylər deyilmiş ola bilər. Amma bütün bu deyilənlər içində doğru olan yeganə cavab, insanı Allahın yaratmış olmasıdır. Bir qədər sonra daha ətraflı şəkildə öyrənəcəyik, amma indi ümumi şəkildə bir şeyi bilməlisiniz; ilk insan həzrəti Adəmdir. Allah digər bütün insanları onun nəslindən meydana gətirmişdir.

Hz. Adəm də eynilə bizim kimi yeriyən, danışan, Allaha dua edən, ibadət edən bir insan idi. Allah, ilk insan olaraq onu və sonra da həyat yoldaşını yaratdı. Beləliklə onların uşaqları bütün dünyaya yayıldılar.

Bunu qətiyyən unutmayın: Allah yaratmaq üçün yalnız əmr verər. Bir şeyin olması üçün təkcə ona "ol" deməsi kifayətdir. Bunun üçün heç nəyə ehtiyacı yoxdur. Məsələn, Allah, hz. Adəmi palçıqdan yaratmışdır. Allah üçün hər şey çox asandır.

Ancaq unutmayın ki, dünyada Allahın varlığını inkar edənlər insanlar da var. Bu insanlar, insanın necə yarandığı sualına başqa cavablar axtarmağa çalışmışdırlar. Bunların məqsədi haqqı, həqiqəti axtarmaq deyil. Qətiyyən təəccüblənməyin, amma bu cür insanların məqsədi, yalnız və yalnız Allahın varlığını qəbul etməmək və Onun əmrlərini yerinə yetirməməkdir. Ancaq bu cür insanların hər şeyi Allahın yaratdığını qəbul etməməsi həqiqəti dəyişdirməz. Onlar nə qədər rədd etsə də, hər şeyi olduğu kimi bu insanları da Allah yaratmışdır.

Bilirsiniz mi bu nəyə bənzəyir, bunu bir nümunə izah edək:

Bir cizgi film qəhrəmanı düşünün. Çox bacarıqlıdır, qüvvətlidir və bir çox çətin işi də yerinə yetirə bilsin. İndi bu cizgi film qəhrəmanı, cizgi filmi əsnasında sizə belə desə:

"Mən öz-özümə yarandım. Məni heç kəs çəkmədi. Məni meydana gətirən cizgilər onsuz da əzəldən bəri vardı. Bədənimin forması, rənglərim, gözlərim, qollarım, görməyim, danışmağım, hər şeyim mənə aiddir. Öz-özünə yarandılar. Onları bir rəssam çəkmədi və boyamadı. Mənə hərəkət qabiliyyətini heç kəs vermədi. Seyr etdiyiniz bütün xüsusiyyətlərimi planlaşdıran, dizayn edən, onlara forma verən və onları nizamlayan heç kəs yoxdur".

Görəsən bu cizgi film qəhrəmanının sizə bunları söyləməsi başınızı qarışdırar mı? Söylədiklərinin doğru ola biləcəyini heç düşünərsiniz mi? Əlbəttə ki, xeyr. O qəhramana sual verə bilsəniz və o da sizə cavab verə bilsə, ona belə sual verərsiniz mi?:

"Sən belə deyirsən, lakin buna baxmayaraq, sənin cizgiləriyi çəkən bir rəssam var. Sən özün necə çəkildiyini, rəngləndiyini və hərəkət etdiyini düşünürsən?"

Çizgi qəhrəmanı da sizə belə cavab versə: "Məni meydana gətirən cizgilər mürəkkəbin kağıza tökülməsi nəticəsində təsadüfən əmələ gəldi. Boyalar da eynilə təsadüfən töküldü və rəngləndirdi. Yəni mənim yaranmağım üçün məni çəkən, mənə forma verən birinə ehtiyacım yoxdur, təsadüfən yarana bilərəm" desə, yəqin ki, bu deyilənlərə inanmazsınız. Belə mükəmməl cizgilərin, rənglərin, hərəkətlərin, boyaların tökülməsi nəticəsində təsadüfən ortaya çıxa bilməyəcəyini bilirsiniz. Çünki butulka aşdıqda yalnız mürəkkəb və boya ləkəsi əmələ gələr. Gözəl, düzgün cızıqlardan ibarət bir şəkil əmələ gəlməz. Mənalı, aktual, işə yarayan şeylərin əmələ gələ bilməsi üçün, biri onu, düşünərək dizayn etməli və çəkməlidir. Bütün bunları anlamağınız üçün, o cizgi film qəhrəmanını çəkəni və rəngləyəni görməyinizə ehtiyac yoxdur. Bu qəhrəmanın xüsusiyyətlərinin, formasının, rənglərinin, danışma qabiliyyətinin, yerimə, tullanma qabiliyyətlərinin cizgi filmi dizayn edən insan tərəfindən ona verildiyini anlayarsınız.

Məhz bu verdiyimiz nümunədən sonra bunu çox yaxşı düşünün: Özünü Allahın yaratdığını qəbul etməyən insan da, eynilə bu nümunədəki cizgi film qəhrəmanı kimi yalançı mövqeyinə düşər. İndi belə bir insanın bizimlə danışdığını düşünək. Bu insanın, bütün insanların və özünün yaradılışını necə izah etməyə çalışdığına bir baxın:

"Mənim anam, atam, onun atası və xeyli qədim vaxtlarda ilk ata-ana, yəni ilk insanlar tamamilə təsadüfən yaranmışdır. Bizim formamızı, gözümüzü, qulağımızı, bütün orqanlarımızı daim təsadüflər əmələ gətirmişdir".

Özünü Allahın yaratdığını inkar edən bu insanın söylədikləri, cizgi film qəhrəmanın söylədiklərinə necə də bənzəyir. Aradakı yeganə fərq, qəhrəmanın kağız üzərindəki cizgilərdən və boyalardan, bunu söyləyənin isə, hüceyrələrdən meydana gəlmiş canlı bir insan olmasıdır. Bəs bunun nə fərqi var? Bunu söyləyən canlı insan, cizgilərdən meydana gələn həmin film qəhrəmanından, daha mükəmməl və daha çox orqana sahib, çox mürəkkəb bir maşın kimi deyildirmi? Yəni cizgi film qəhrəmanının

təsadüfən əmələ gəlməsi qeyri-mümkündürsə, bu insanın təsadüfən meydana gəlməsi bundan qat-qat qeyri-mümkündür. İndi bu insana belə sual verək:

"Sənin çox gözəl və işəyararlı bir bədənin var. Əllərin, əşyaları ən mükəmməl maşınlardan belə daha həssas tutur, ayaqlarınla qaça bilirsən. Gözlərin ən keyfiyyətli kameralardan belə daha aydın görür. Qulaqların ən təkmilləşmiş maqnitofonlardan belə daha az xışıltılı eşidir və bunun kimi daha bir çox orqanın, xəbərin belə olmadan səni həyatda saxlayır. Yaşamağına səbəb olur. Məsələn, ürəyinin, böyrəklərinin, qaraciyərinin fəaliyyətinə sən nəzarət etmirsən. Amma onlar ən mükəmməl fabriklərdən belə daha mükəmməl işləyirlər. Bütün bu orqanların bənzərlərini fabriklərdə əmələ gətirmək üçün, yüzlərlə elm adamı, mühəndis işləyir, plan və layihələr qururlar. Yenə də orqanların eynisini əmələ gətirə bilmirlər. Yəni sən çox mükəmməl bir canlısan. Bəs indi bütün bunları necə izah edəcəksən?". Bunları Allahın yaratdığını qəbul etməyən o insan bəlkə də belə söyləyəcək: "Mən də, mükəmməl bir bədənə və orqanlara sahib olduğumu bilirəm. Amma mən, cansız və şüursuz atomların tamamilə təsadüflər nəticəsində birləşərək hüceyrələrimizi, orqanlarımızı və bizi əmələ gətirdiyinə inanıram".

Artıq, yəqin ki, bu insanın ağılsız və gülünc şeylər söylədiyini gördünüz. Bu cür iddialar ortaya atan bir insanın, yaşından və peşəsindən asılı olmayaraq, doğru düşünmədiyi və yanlış şeylər iddia etdiyi aydındır. Nə qədər təəccüb oyandırsa da, ətrafınızda belə qeyri-mümkün və axmaq şeylərə inanan insanlara rast gələ bilərsiniz.

Ən sadə maşının belə dizayneri olduğu halda, əlbəttə ki, insan kimi mükəmməl bir varlıq, öz-özünə və təsadüfən yarana bilməz. Şübhəsiz ki, ilk insanı yaradan Allahdır və digər insanların yaranması üçün ilk insanın bədənində lazımi sistemləri yaradan da Allahdır. Allah bütün canlıların nəsillərinin davam etməsini hüceyrələrinə yerləşdirdiyi proqramdan asılı hala gətirmişdir. Biz də Allahın yaratdığı bu proqram əsasında yarandıq və bu proqramda yazılanlar əsasında böyüməyə davam edirik. Bu mövzuyla əlaqədar indi oxuyacaqlarınız hamımızın Yaradıcısı olan Allahın sonsuz güc və elm sahibi olduğunu bir qədər də yaxşı anlamağınızı təmin edəcək.

## İnsan bədənindəki mükəmməl proqram

Əvvəlki başlıqda Allahın insan bədəninə yerləşdirdiyi mükəmməl bir proqramdan bəhs etdik. Məhz bu proqram sayəsində bütün insanlar gözlərə, qulaqlara, qollara, dişlərə sahib olar. Bu proqram sayəsində xarici görünüşlərində bəzi fərqlər yaransa da, bütün insanlar bir-birinə bənzəyər. Yenə bu proqram sayəsində qohumlarımıza bənzəyərik, eləcə də, hər ölkə xalqının özünəməxsus xüsusiyyətləri olar. Məsələn, çinlilər və yaponlar adətən bir-birlərinə bənzəyərlər. Zəncilərin öz irqlərinə məxsus dəri rəngləri, üz, ağız, göz quruluşları var.

İndi isə bu proqramın necə bir şey olduğunu belə bir nümunə ilə izah edək:

Hamınız kompyuterlərin necə işlədiyini az-çox bilirsiniz. Bu mövzunu yaxşı bilən bir mütəxəssis, kompyuteri dizayn edər. Kompyuterin bu dizayn əsasında istehsalı üçün zəruri olan mikroprosessor, monitor, klaviatura, disk, kolonka kimi hissələr də xüsusi fabriklərdə yüksək texnologiya əsasında yenə bu mövzuda məlumat sahibi insanlar tərəfindən istehsal olunar. Artıq, ortada çox mürəkkəb əməliyyatlar apara bilən bir maşın var. Onunla oyun oynaya bilər və ya yazı yaza bilərsiniz. Lakin kompyuterin bu işləri görə bilməsi üçün, "proqram" adlanan proqramlara ehtiyacı var. Yəni içinə yerləşdirdiyiniz oyun disklərindəki məlumatlar kimi. Bunun üçün mütəxəssislər tərəfindən xüsusi olaraq hazırlanmış proqramlar olmasa kompyuteriniz işə yaramayacaq.

Üstəlik, bildiyiniz kimi, istənilən proqram istənilən markalı kompyuterdə işləməz. Deməli, proqramı yazan şəsx, eyni zamanda kompyuter barəsində də məlumat sahibi olmalı və ona uyğun bir proqram hazırlamalıdır. Bir kompyuterin işləməsi üçün nə qədər çox şey bilmək lazımdır elə deyilmi? Həm bir maşına, həm də onu işlədəcək müvafiq proqrama ehtiyacınız var. Ancaq ən əhəmiyyətlisi bütün bunları dizayn edən və istehsal edən insanlar olmasa kompyuteriniz yenə işləməz.

Məhz, insan bədəni də bir kompyuter kimidir, bir qədər əvvəl də söylədiyimiz kimi, bədənimizi təşkil edən hüceyrələrin içinə bizim mövcud olmağımızı təmin edən bir proqram yüklənmişdir. İndi bunu düşünün: İlk insanın içinə qoyulan bu proqram necə meydana gəlmiş ola bilər? Cavab aydındır: Hər insan xüsusi olaraq yaradılmışdır və bunu təmin edən proqramı da yüksək məlumat və çox üstün güc sahibi Allah meydana gətirmişdir. Bədənimizi də, onu formalaşdıran proqramı da Allah yaratmışdır.

Ancaq bunu yanlış anlamayın; əslində insan bədənini bir kompyuterlə müqayisə etmək qeyri-mümkündür. Çünki bədənimiz ən təkmilləşmiş kompyuterdən belə olduqca mükəmməl quruluşa malikdir. Belə ki, yalnız beynimiz belə istənilən cəhətdən kompyuterdən qat-qat üstündür.

Gəlin indi də, bir insanın necə yarandığını daha doğrusu sizin dünyaya necə gəldiyinizi birlikdə araşdıraq:

Ananızın bətnində əvvəlcə kiçik bir ət parçası olar. Bu parça getdikcə böyüyər və müəyyən formaya düşər. Vaxt keçdikcə sümükləriniz, əzələləriniz, başınız, gözünüz, qulağınız tam öz yerlərində yaranmağa başlayar. Heç bir orqanınızın yeri dəyişik düşməz.

Boyunuzun nə qədər olacağı, göz rənginiz, əzələniz, əlinizin forması və digər yüzlərlə xüsusiyyətiniz ilk andan etibarən bəllidir. Məhz bütün bu məlumatlar Allahın hüceyrələrimizi ilk dəfə yaradarkən içinə qoyduğu proqramda yazılmışdır. Allah hər şeyi ən incə nöqtəsinə qədər müəyyənləşdirib bu proqrama yazmışdır ki, bu da

bütün insanların hüceyrələrinin içinə yerləşdirilmişdir. Bu sayədə insan nəsli davam edər. Bu proqram elə mükəmməl və müfəssəldir ki, necə işlədiyini belə elm adamları hələ təzə-təzə anlamağa başlamışdırlar.

Allahın bədənimizə yerləşdirdiyi bu proqrama uyğun olaraq illər boyu yavaş-yavaş böyüyərik. Bundan ötrü də, bədənimizin böyüməsi bizə qəribə gəlməz. Doğulub böyüməyimiz onlarla il davam edər. Bu proqramın çox sürətli işləyəcəyi təqdirdə, nə qədər təəccüblənəcəyimizi bir düşünün. Yeni doğulmuş bir körpə gözlərimizin qarşısında, birdən-birə, bir neçə saat ərzində yaşlı bir insana çevrilsə heyrət içində qalardıq.

## Digər canlıların yaradılışı

Əlbəttə ki, dünya yalnız insanlardan ibarət deyil. Yer üzündə bildiyiniz və ya bilmədiyiniz minlərlə növ canlı var. Varlığından xəbərdar olduqlarınızın bəzilərini yaxından görərsiniz, amma əksəriyyətini də kitablar və ya filmlər sayəsində tanıyarsınız. Lakin, bu canlılara diqqət yetirsəniz hamısının ortaq bir xüsusiyyəti olduğunu görərsiniz. Bu nədir bilirsinizmi? Bu xüsusiyyətə qısa şəkildə "uyğunluq" deyə bilərik. İndi, sizin üçün dünyadakı canlıların nələrə uyğun olduqlarını sayaq. Canlılar;

- Yaşadıqları mühitə uyğundurlar.
- Yaşadıqları mühitdəki digər canlılarla uyğunluq təşkil edirlər.
- Təbiətin tarazlığını təmin etməyə uyğundurlar.
- İnsana müxtəlif faydalar verməyə uyğundurlar.

Bu bəndləri izah etmədən əvvəl, uyğunluğun nə olduğuna dair sadə bir nümunə verək. İndi, evimizin divarındakı taxıc yuvası və ona taxdığımız taxıcı düşünün. İkisi də bir-birinə uyğundurlar. Uyğun olduğuna necə qərar verərik? Çünki taxıc yuvasında iki deşik var. Taxıcda isə iki ədəd metal çıxıntı var. Görəsən bu kifayətdirmi? Taxıcın dəmir çubuqlarının qalınlığı tam deşiyin qalınlığı qədərdir. Əgər belə olmasa, ya içinə girməzdi, ya da boş qalıb çıxardı, elə deyilmi? Bununla yanaşı, taxıcın çubuqları arasındakı məsafə ilə taxıc yuvasının deşikləri arasındakı məsafə eynidir. Ölçüləri uyğun gəlməsəydi taxıcı deşiklərə sala bilməzdiniz. Bu da kifayət deyil, taxıc çox uzun olsaydı, yenə uyğun gəlməzdi. Taxıcın çubuqları metal olmasaydı, bu dəfə taxıc yuvasındakı elektrik cərəyanı taxıca keçməzdi. Əgər taxıcın başı plastik materialdan olmasaydı, taxıcdan yapışdığınız vaxt sizi də elektrik vurardı. Gördünüz mü, ən sadə bir materialda belə uyğunluq olmadıqda, onu işlətmək qeyri-mümkün olur. Deməli, taxıc yuvasını və taxıcı əvvəlcə eyni insan

planlaşdırmışdır. Bir-birinə uyğun şəkildə düzəltmişdir. İşəyararlı şəkildə düzəltmişdir. Bunlar dəmirin və plastik maddənin təsadüfən birləşməsi nəticəsində meydana gələ bilməz və ayrı-ayrılıqda planlana da bilməzlər. Çünki bu təqdirdə bir-biriylə uyğun bir taxıc və taxıc yuvası tapa bilməzsiniz.

Canlılardakı uyğunluq isə taxıc və taxıc yuvası uyğunluğundan xeyli müfəssəldir. Çünki canlılarda bir-biriylə uyğunlaşması və mükəmməl işləməsi lazım olan yüz minlərlə sistem və orqan var. Bunları tək-tək yazmağa çalışsaq yüzlərlə cild kitab ortaya çıxar. Buna görə də, Allahın canlılarda yaratdığı bu mükəmməl xüsusiyyətlər barədə sonrakı səhifələrdə qısa şəkildə danışacağıq:

### - Canlılar yaşadıqları mühitə uyğundurlar

Quruda, havada və ya suda yaşamasından asılı olmayaraq, hər canlı yaşadığı mühitə ən uyğun şəkildə yaradılmışdır. Yaşaya bilməsi, qoruna bilməsi, qidalanması, nəsil verib çoxala bilməsi üçün çox müxtəlif və mükəmməl sistemlərə sahibdir. Yəni hər canlı yaşadığı mühitə görə xüsusi olaraq dizayn olunmuşdur.

Orqanları, hərəkət etmə formaları daim mühitin tələbinə uyğun olar. Məsələn, quşlar havada uçmaq üçün mükəmməl qanadlara malikdir. Balıqların suda nəfəs almaq üçün xüsusi yaradılmış qəlsəmələri var. Əgər bizim kimi ağciyərləri olsaydı, suda boğulardılar.

### - Canlılar yaşadıqları mühitdəki digər canlılarla uyğunluq təşkil edirlər

Bəzi quşlar və böcəklər, bitkilərin çoxala bilməsi üçün çox uyğun yaradılmışdırlar. Yəni xəbərləri olmadan bitkilərin çoxalmasına kömək edirlər. Məsələn, arılar çiçəkdən çiçəyə qonarkən üstlərinə bulaşan çiçək tozlarını digər çiçəklərə daşıyarlar. Bitkilər də bu daşınma əməliyyatı sayəsində çoxalarlar. Bəzi hallarda da heyvanlar, digər heyvanların xeyirinə olacaq işlər görərlər. Məsələn, təmizləyici balıqlar, böyük balıqların üzərindəki mikroorqanizmləri təmizləyərək onların sağlam yaşamasına kömək edirlər. Yəni onlarla uyğunluq təşkil edirlər.

### - Canlılar təbiətin tarazlığını təmin etməyə uyğundurlar

Heç bir canlı təbiətdəki tarazlığı pozmaz. Hətta onu qoruyacaq şəkildə yaradılıblar. Halbuki insan şüursuz şəkildə müdaxilə etdikdə bu tarazlığı poza bilər. Məsələn, insan bir canlı növünü çox ovladıqda onun nəslini kəsə bilər. Beləliklə də, nəsli tükənən həmin canlının qidası olan başqa bir canlı həddən artıq çoxala bilər və

bu, insana və təbiətə zərər verə bilər. Deməli, canlılar yaradılarkən müəyyən tarazlığa görə yaradılıblar. Təbiətin tarazlığına uyğunlaşdırılıblar.

### - İnsana müxtəlif faydalar verməyə uyğundurlar

Məsələn, balın sizin üçün nə qədər faydalı olduğunu bir düşünün. Arılar sizin belə bir qidaya ehtiyacınız olduğunu haradan bilir və belə bir qidanı necə hazırlayırlar? Eləcə də yumurta və süd, elə deyilmi? Toyuq, inək, qoyun insanın ehtiyacını öz-özünə bilərək, belə uyğun, mükəmməl qidalar hazırlaya bilərmi? Əlbəttə ki, xeyr.

Canlılar arasındakı bu çox mühüm uyğunluq, onların tək bir Yaradıcının əsəri olduqlarının aydın bir dəlilidir. Yer üzündəki bu tarazlıqlar Allahın mükəmməl yaratması sayəsində meydana çıxmışdır və hələ də mövcudluğunu davam etdirir.

## Kainatın yaradılışı

Kitabın əvvəlindən bəri canlıları Allahın yaratdığını qeyd etdik. İndi isə növbə, içində hər şeyin yerləşdiyi kainatı araşdırmağa gəlib çatdı. İçində sizin, dünyanın, Günəşin, Günəş sisteminin, planetlərin, ulduzların, qalaktikaların bir sözlə, hər şeyin yerləşdiyi kainatı da Allah yaratmışdır.

Ancaq canlıların yaradılması həqiqətinə qarşı çıxanlar olduğu kimi, kainatın yaradılması həqiqətinə də qarşı çıxanlar var. Bu insanlar yenə çox axmaq iddialar irəli sürürlər. Kainatın öz-özünə yarandığını, hətta əzəldən bəri var olduğunu söyləyərlər. Ancaq bu olduqca məntiqsiz iddialarının necə gerçəkləşdiyini izah edə bilməzlər. Belə insanların iddiaları buna bənzəyir: Bir gün bir dəniz səyahətinə çıxsanız və bir adaya çatsanız. Bu adada indiyə qədər görmədiyiniz gözəl binaların yerləşdiyi bir şəhər olduğunu görsəniz. Üstəlik, bu şəhərin hər yerinin parklarla, oyun meydançalarıyla, zooparklarla, bir-birindən böyük kinoteatrlarla, restoranlarla, hər yerə asanlıqla çata biləcəyiniz prospektlərlə, qatar yolları ilə dolu olduğunu görsəniz nə düşünərsiniz? Bu şəhəri ağıl sahibi insanlar inşa etmişdir elə deyilmi? Biri çıxıb sizə; "bu şəhəri heç kəs inşa etmədi, bu şəhər əzəldən bəri burada mövcud idi, biz də gəlib burada yaşamağa başladıq. Ehtiyacımız olan hər şey var və bunların hamısı öz-özünə meydana gəlmişdir" desə bunları söyləyən insan barədə nə düşünərsiniz?

Əlbəttə ki, bu insan ya ağlını itirmiş, ya da nə danışdığını bilmir deyərsiniz. Amma unutmayın, içində yaşadığımız kainat burada təsvir etdiyimiz şəhərlə müqayisə edilə bilməyəcək qədər böyükdür və olduqca möhtəşəm strukturlara (planetlər, günəşlər, ulduzlar, peyklər, quyruqlu ulduzlar və s.) malikdir. Bu təqdirdə,

bu mükəmməl kainatın yaradılmadığını, əzəldən bəri mövcud olduğunu söyləyən insana bir cavab verməк lazımdır, elə deyilmi?

Aşağıdakı hissəni oxuduqdan sonra bu insana ən gözəl cavabı siz verəcəksiniz. İndi sizə bir qədər kainat barədə məlumatlar verək. Əsil cavabı isə, ən axırda verək.

## – Hər şey böyük partlayış nəticəsində yaranmağa başlayır

İnsanlar, kifayət qədər göyü müşahidə etmə imkanları olmadığı vaxtlarda, kainat haqqında çox az və həqiqətdən kənar məlumatlara sahibdilər. Vaxt keçdikcə əllərindəki müşahidə vasitələri təkmilləşdi və kosmos barədə daha doğru məlumatlara sahib olmağa başladılar. Onlar XX əsrin ortalarında çox əhəmiyyətli bir şey kəşf etdilər: Kainatın da doğum tarixi var. Yəni kainat əzəldən bəri mövcud deyildi. Kainatdakı bütün maddələr, maddələrin meydana gətirdiyi ulduzlar, qalaktikalar, bir sözlə, hər şey müəyyən andan etibarən yaranmağa başlamışdı. Elm adamları, bu başlanğıc tarixinin dövrümüzdən təxminən 15 milyard il əvvələ gedib çıxdığını müəyyənləşdirdilər.

Kainatın doğum formasına bir ad qoydular və buna “böyük partlayış” dedilər. Çünki heç nəyin olmadığı 15 milyard il bundan əvvəl, hər şey tək bir nöqtənin partlaması nəticəsində yaranmışdı. Bir sözlə, əvvəllərdən bəri sonsuz olduğu güman edilən maddənin və kainatın da bir başlanğıcı vardı. Bəs bunu necə anladılar? Çox asan, çünki o partlayış nəticəsində ətrafa saçılan və bir-birlərindən uzaqlaşmağa başlayan maddələr indi də bir-birlərindən uzaqlaşmağa davam edirlər. Uşaqlar bir düşünün, kainat hələ də genişləməyə davam edir. Kainatı şişmiş bir şar kimi düşünün. Bu şarın üzərinə qələmlə iki nöqtə qoysaq, biz şarı şişirtdiyimizdə nə baş verər? Şara qoyduğumuz nöqtələr, şişib həcmi genişləndikcə bir-birindən uzaqlaşar. Məhz, kainatın həcmi də eynilə bu cür böyüyür və içindəki hər şeyin bir-birinə olan məsafəsi artır. Yəni, bütün ulduzlar, qalaktikalar, göy cisimləri arasındakı məsafə daim artır.

Kainatın genişlənməsi prosesini bir cizgi filmdə izlədiyinizi düşünün. Sizcə cizgi filmi ən başına qaytarsanız, kainatın görünüşü necə olar? Bir nöqtə kimi olar, elə deyilmi? Məhz elm adamları da eynilə bu cür etdilər: Başa qayıtdılar və getdikcə genişlənən kainatın başlanğıcda tək bir nöqtə olduğunu anladılar.

Elm adamlarının “böyük partlayış” adlandırdığı bu partlayış, Allahın "kainat" üçün müəyyənləşdirdiyi ömür müddətinin başlanğıcı oldu. Allah bu partlayışla birlikdə kainatı meydana gətirən atomları yaratdı. Maddə əmələ gəldi. Çox böyük sürətlə ətrafa saçıldılar. Partlayışın ilk anlarındakı bu mühit sanki atomlardan ibarət bir maddə şorbası idi. Lakin bu çox böyük qarışıqlıq getdikcə ortadan qalxdı və

nizam yarandı. Allah, atomları birləşdirərək ulduzları meydana gətirdi. Beləliklə də, kainatda hazırda müşahidə etdiyimiz hər şey yaradıldı.

İstəyirsinizsə bütün bunları daha yaxşı başa düşməyimizi təmin edəcək bir nümunə verək:

Zehninizdə çox böyük bir boşluq canlandırın. Ucsuz-bucaqsız bir boşluq. Orada yalnız bir boya bankası olsun. Başqa heç nə olmasın. Bankanın içində də hər rəngdən olan boyalar bir-birinə qarışmış, qəribə bir rəng meydana gətirmiş olsun. Bu bankanın içində bir bomba partlayır. Partlayışın təsiri nəticəsində boya çox kiçik damlalar halında ətrafa saçılır. Milyonlarla boya damlasının boşluq içində bütün istiqamətlərə hərəkət etdiyini gözünüzdə canlandırın. Amma bu damlaların səfəri əsnasında qəribə şeylər olmağa başlayır. Boya damlaları, dağınıq halda hərəkət etmək əvəzinə, sanki çox ağıllılarmış kimi nizamlı işlər görməyə başlayırlar. Əvvəlcə bankada olarkən qarışıq rəng meydana gətirən müxtəlif rəngli damlalar, artıq bir-birlərindən ayrılmağa başlayırlar. Mavi, sarı, qırmızı və digər rənglər halında qruplaşır və ətrafa yayılıb bir-birindən uzaqlaşmağa davam edirlər. Amma qəribəliklər davam edir. Bu dəfə də mavi rəngli damlalardan 500-i birləşərək daha böyük damla yaradır və səfərlərinə davam edilər. Məsələn, başqa bir yerdə, 300 qırmızı damla, digər bir yerdə isə 200 sarı damla eynilə bu cür birləşərək, böyük damlalar halında ətrafa yayılmağa davam edirlər. Həm bir-birlərindən uzaqlaşırlar, həm də bu əsnada sanki biri onlara əmr etmiş kimi, gözəl görünüşlər meydana gətirəcək işlər görürlər.

Bəzi damlalar birləşərək ulduzları meydana gətirir, bəziləri Günəşi çəkir, bəzi damlalar isə sonradan bu Günəşin ətrafında hərəkət edən planetləri meydana gətirir. Bir hissəsi birləşib yer kürəsini çəkirlər və bir hissəsi də yerin ətrafında fırlanan Ayı meydana gətiririrlər. Belə bir mənzərə görsəniz, bunu, partlayan bir boya bankasının təsadüfən meydana gətirdiyini düşünərsiniz mi? Əlbəttə ki, belə bir şeyi əsla ehtimal etməzsiniz.

Məhz gecə başımızı qaldırıb göyə baxanda gördüyümüz o gözəl mənzərəni, ulduzları, Günəşi, planetləri meydana gətirən maddələr də, eynilə bu boya bankası hekayəsində olduğu kimi, birləşərək bu mükəmməl mənzərəni meydana gətirdilər. Bəs bütün bunlar öz-özünə yaranmış ola bilərmi? Səmadakı ulduzlar, planetlər, Günəş, Ay və yer kürəsi, bəzi şüursuz maddələrin öz-özünə təsadüfən birləşməsiylə yaranmış ola bilərmi? Bəs dünya üzərində həyatını davam etdirən ananız, atanız, dostlarınız və ya quşlar, pişiklər, çiyələklər, bananlar necə?

Əlbəttə ki, belə bir şey ola bilməz. Belə bir şey ola biləcəyini düşünmək, içində bomba partlayan hər hansı tikilidəki kərpiclərin və kirəmitlərin öz-özlərinə təsadüfən bir yerə toplanaraq yeni evlər inşa etdiklərini iddia etməkdən daha axmaq bir düşüncə olar. Hamımız, bir tikilidə bomba partlayacağı vaxt, ətrafa dağılan

kərpiclər, kirəmitlər və taxtaların kənarda kiçik alaçıqlar meydana gətirməyəcəyini bilirik. Daş-torpaq halında dağılıb gedər, heç nəyə yaramazlar.

Ancaq burada çox mühüm olan incə bir məqam var. Diqqət yetirmisinizsə bir qədər əvvəl nümunə verdiyimiz boya damlaları şüursuz və cansız maddələrdir. Boyaların öz-özlərinə birləşmələri və bir portret meydana gətirmələri qeyri-mümkündür. Biz isə burada şüurlu və canlı strukturların meydana gəlməsindən bəhs edirik. İnsan, bitki və heyvan kimi canlı varlıqların cansız və nəzarətsiz maddələrdən yaranması da qətiyyən mümkün deyil.

Öz bədənimizdən nümunələr verərək bunu düşünək. Bədənimiz zülal, yağ, su kimi gözlə görülməyəcək qədər kiçik molekulların birləşməsi nəticəsində yaranar. Bunlar birləşərək hüceyrələrimizi, hüceyrələrimiz də birləşərək bədənimizi meydana gətirər. Bədənimizdəki mükəmməl nizam xüsusi bir dizaynın nəticəsidir. Hər şeyi görməyimizi təmin edən gözlərimizi, yemək yeməyimiz və bu kitabı tuta bilməyimiz üçün əllərimizi, yerimək üçün idə ayaqlarımızı yaradan Allahdır. Hələ anamızın bətnində olarkən, necə böyüyəcəyimizi, boyumuzun nə qədər olacağını, gözlərimizin hansı rəngdə olacağını, bir sözlə, hamısını Allah müəyyənləşdirmişdir.

## Hər şeyi Yaradan Allahdır

Əgər xatırlayırsınızsa mövzumuzun əvvəlində Allaha iman etməyən bir insana cavab verəcəkdik. Məhz artıq cavabı bilirsiniz. Partlayışlar nizam meydana gətirə bilməz, ancaq mövcud nizamı korlayarlar. Kainatda isə, möhtəşəm tarazlıq və nizam var. Kainatın meydana gətirən partlayışdan sonra ortaya çıxan nizam, buraya qədər izah etdiyimiz nümunələrdən (böyük şəhər və boya qutusu nümunələri) daha çox mükəmməldir. Bunların təsadüfən yarana bilməsi qətiyyən mümkün deyil.

Bu mükəmməl sistem ancaq sonsuz qüdrət sahibi olan Allahın diləməsiylə yaranmışdır. Allah hər şeyə gücü çatır. Bir şeyi yaratmaq üçün Rəbbimizin sadəcə **"ol"** əmrini verməsi kifayətdir.

Allah bizim üçün mükəmməl bir kainat içində çox gözəl bir dünya yaratmışdır. Üzərində növbənöv heyvanlar, bitkilərlə birlikdə... Bizi isitməsi, enerji verməsi üçün Günəşi də yaratmışdır. Eləcə də Günəş, dünyaya elə yaxşı nizamlanmış məsafədə yerləşir ki, bir qədər yaxın olsa istidən, bir qədər uzaq olsa isə, soyuqdan ölərik.

Məhz elm adamları bizə bu həqiqətləri danışdıqca, biz də Allahın gücünü daha yaxşı anlayırıq. Çünki qətiyyən ağlı və zəkası olmayan boya damlası nümunəsindəki kimi, maddələr özləri qərar verib belə bir şeyi edə bilməzlər. Deməli, bu kainatı da yaradan və qaydaya salan var. Ulduzları, insanları, heyvanları, bitkiləri, canlı-cansız hər şeyi meydana gətirən maddələr də Allahın əmri ilə hərəkət edirlər. Bunun üçün kainatdakı hər şey nizamlıdır, qarışmaz, uyğundur. Çünki bütün bunları, hər şeyi mükəmməl şəkildə yaradan Allah yaratmışdır.

## Allah bütün insanları tale ilə yaratmışdır

Kitabın əvvəlində sizə ilk insan olan hz. Adəmin yaradılışından danışmışıq. Allah digər insanları da hz. Adəmin nəslindən yaratmışdır. Onları dünyaya imtahan etmək üçün yerləşdirmiş və nələr etməli olduqlarını da elçiləri vasitəsilə onlara öyrətmişdir.

Hər insan dünyada yaşadığı hadisələrlə imtahan olunar. Yəni qarşılaşdığı hadisələr qarşısında necə reaksiya verəcəyi, necə sözlər söyləyəcəyi, çətinliklər qarşısında səbir edib, etməyəcəyi, bir sözlə, gözəl əxlaqlı olub olmayacağı ilə imtahan olunar. Bu imtahanın nəticəsi əsasında, ölümdən sonra axirətdə necə həyat yaşayacağı müəyyənləşdirilər.

Amma dünyadakı imtahanın çox əhəmiyyətli bir sirri var. Allah insan üçün böyük rahatlıq olaraq taleyi yaratmışdır. Tale, yəni bir insanın yaşayacağı bütün hadisələr, hələ o insan doğulmadan əvvəl Allah Qatında müəyyənləşdirilmişdir. Hər insan üçün ayrı bir tale yaradılmışdır.

Bunu daha yaxşı anlamağınız üçün taleyi hər hansı video kasetdəki bir filmə bənzədə bilərik. Video kasetdəki bir filmin əvvəli və sonu məlumdur, ancaq biz bunu seyr etdikdən sonra öyrənə bilərik. Məhz tale də belədir. Bir insanın doğulduğu andan etibarən edəcəyi hər şey, qarşılaşacağı hadisələr, harada oxuyacağı, nə zaman harada yaşayacağı və nə zaman öləcəyi taleyində müəyyənləşdirilmişdir. Allah bu insanın başına gələn bütün yaxşı və pis hadisələri bilir. Hər insan dünyada özü üçün müəyyənləşdirilmiş bu ssenari əsasında imtahan olunar. Yəni kənardan müdaxilə edilməsi qətiyyən mümkün olmayan bir ssenari daxilində bəzi hadisələr yaşayar və bunlara verdiyi reaksiyalara görə axirətdə müəyyən qarşılıq alar.

Tale insan üçün çox böyük asanlıq və Allahın lütfüdür. Buna görə də, bir insanın sonu əvvəlcədən məlum olan hadisələr üçün kədərlənməsi, yolunda getməyən bir şey olduqda sıxılması çox mənasızdır. Dünyadakı imtahana səbir edib, hər şeyin Allahdan gəldiyini bilənləri, Allah, ayələrində cənnətlə müjdələyir. Bu mövzuda peyğəmbərlər ən gözəl nümunədir. Allah insanları xəbərdar etmək üçün göndərdiyi elçilərini gözəl əxlaqlarından ötrü cənnətlə müjdələmişdir.

# Allah elçilər və kitablar göndərmişdir

Buraya qədər Allahın gücünü və böyüklüyünü öz-özümüzə düşünərək anlamağımız üçün müxtəlif nümunələr və dəlillər verdik. Onsuz da Allah bizə fikirləşmə, düşünmə qabiliyyətlərini Özünü tanımaq üçün vermişdir. Bununla yanaşı Allah bizə, Özünü tanıtmaq və insanlardan nələr istədiyini bildirmək üçün kitablar göndərmişdir. Həmçinin Rəbbimiz, istədiklərini bəzən yazılı, bəzən də şifahi şəkildə insanlara çatdırmaları üçün, seçdiyi və çox üstün əxlaq xüsusiyyətlərinə sahib peyğəmbərlərə vəzifə vermişdir.

Peyğəmbərlərin sayını tam olaraq bilmirik. Yalnız Allahın göndərdiyi son müqəddəs kitab olan Quranda bildirilən peyğəmbərlərin adlarını bilirik. Allah, bizə bu peyğəmbərlərin həyatlarını gözəl davranış və düşüncələrə nümunə olaraq göstərmişdir. Rəbbimiz, göndərdiyi peyğəmbərlər vasitəsilə insanın dünya həyatındakı davranış və həyat tərzinin, yəni dinin necə olmalı olduğunu izah etmişdir. Məhz biz də necə davranışlar göstərməli olduğumuzu, nəyin daha yaxşı və gözəl əxlaqa uyğun olduğunu Allahın bildirməsi sayəsində bilərik. Allahın bəyənib bizə qarşılığında mükafat verəcəyi davranışları, bəyənməyib xoşlamadığı və qarşılığında cəza verəcəyi davranışları da ancaq Onun bildirməsi sayəsində öyrənərik.

Quranda Allahın tarix boyu bütün cəmiyyətlərə Özünü tanıdacaq elçilərini göndərdiyi bildirilir. Peyğəmbərlər göndərildikləri cəmiyyətləri daim xəbərdar ediblər. Onları Allaha ibadət etməyə, dua etməyə və Onun istədiklərini yerinə yetirməyə çağırıblar. Əks təqdirdə cəzalandırılacaqlarını bildiriblər. Yəni yaşadıqları cəmiyyətləri xəbərdar etmiş, Allahı və Onun dinini inkar edənləri, pis əməllər işləyənləri qorxutmuş və iman edən insanları da Allah tərəfindən mükafatlandırılacaqlarıyla müjdələmişdirlər. Çünki Allah yaxşı insanları ölümlərindən sonra cənnətlə müjdələyir, pis insanları da cəhənnəmlə qorxudub başlarına gələcəklər barədə xəbərdar edir (Cənnət və cəhənnəm mövzularını sonrakı başlıqlar altında daha ətraflı izah edəcəyik).

Allahın insanlara göndərdiyi son peyğəmbər hz. Məhəmməd (s.ə.v)-dir. Son müqəddəs kitab da Qurandır.

Qurandan əvvəl göndərilən kitabları isə, pis niyyətli insanlar dəyişdirmişdirlər. Bu kitablar zamanla dəyişdirilmiş, unudulmuş və ya yoxa çıxmışdırlar. Buna görə də onların əsli, yəni ilk göndərilən halları dövrümüzə gəlib çatmamışdır. Amma Allah bizə, qətiyyən dəyişdirilə bilməyəcəyini bildirdiyi Quranı göndərmişdir.

Peyğəmbərimiz həzrəti Məhəmməd (s.ə.v) və ondan sonra yaşamış müsəlmanlar da Quranı çox yaxşı qorumuş və çoxaltmışdırlar. Quran hər kəsin anlaya biləcəyi şəkildə açıq-aydındır. Quranı oxuduğumuz vaxt, bunun Allahın sözü

olduğunu dərhal başa düşürük. Dövrümüzə qədər dəyişilmədən gəlib çıxmış Quran Allahın qoruması altındadır və qiyamətə qədər etibarlı olan yeganə müqəddəs kitabdır.

Bu gün dünyanın hər yerindəki Quran kitabları bir-birinin eynisidir, sözündə hətta tək bir hərfində belə heç bir fərq yoxdur. Peyğəmbərimiz (s.ə.v)-in yaxın dostlarından və xəlifələrindən (yerinə idarəçi olaraq qoyduğu insan) hz. Osmanın dövrümüzdən 1400 il əvvəl yazdırdığı Quranla bugünkü Quran kitabları arasında da heç bir fərq yoxdur. Hamısı tamamilə eynidir. Deməli, Quran Peyğəmbərimiz (s.ə.v)-ə endirildiyi ilk gündən bəri heç bir dəyişikliyə uğramadan bu günə qədər gəlib çatmışdır. Çünki Allah, Quranı pis niyyətli insanların dəyişdirməsindən qorumuşdur. Allah bizə Quranı xüsusi olaraq qoruyacağını yenə bir Quran ayəsində belə xəbər verir:

**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq. (Hicr surəsi, 9)**

Allah bu ayədə keçən "Biz" sözüylə Özünü nəzərdə tutur. Allahdan başqa ilah yoxdur, Onun şəriyi, yardımçısı da yoxdur. Allah hər şeyə gücü çatan, sonsuz bilik və qüvvət sahibi, tək olan İlahdır.

Allah Quranda Özü üçün bəzi yerlərdə "Biz", bəzi yerlərdə isə, "Mən" xitabını işlədir. Quranın əsil dili olan ərəb dilində "biz" sözü tək bir insan üçün də işlədilər. Bu qarşı tərəfdə güc, qüdrət və hörmət hissi oyatmaq üçün işlədilər. Eynilə dilimizdə də, qarşıdakı bir insana, hörmət məqsədiylə "sən" əvəzinə "siz" demək kimi. Artıq kitabın bundan sonrakı hissələrində sizə surələrdən (yəni Quran başlıqlarından) və ayələrdən (yəni Quran cümlələrindən) nümunələr verəcəyik. Bunlar ən doğru sözlərdir. Çünki bizi yaradan və bizi bizdən daha yaxşı bilən Allahın sözləridir.

Allah bizə Quranda peyğəmbərlərin həyatlarından nümunə götürməyimizi bildirmişdir. Bu ayə belədir:

**Onların (peyğəmbərlərin) rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. (Yusif surəsi, 111)**

Allahın bu ayədə diqqət çəkdiyi insan, Quranın Allahın sözü olduğunu bilib bunun əsasında düşünən, ağlını işlədən Quranı anlamağa və tətbiq etməyə çalışan insandır.

Allah, peyğəmbər göndərdiyi cəmiyyəti Öz əmrlərinə tabe olmaqdan məsul tutur. İnsanlar da özlərinə Allahın xəbərdarlığı çatdığı üçün axirətdə hesab verərkən

ortaya heç bir bəhanə ata bilməyəcəklər. Çünki Allahın elçiləri göndərildikləri cəmiyyətlərə, Allahın varlığından və Onun insanlardan nələr etmələrini istədiyindən danışarlar. Beləliklə də, bu sözləri eşidən insanlar məsuliyyət daşımağa başlayarlar.

Quranda belə bildirilmişdir:

**Biz müjdə verən (yəni Allahın ölümdən sonra yaxşı insanlara verəcəyi mükafatla müjdələyən) və xəbərdar edən (yəni Allahın ölümdən sonra pis insanlara cəza verəcəyini söyləyən) elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah üstün və güclüdür, hökm və hikmət sahibidir. (Nisa surəsi, 165)**

Allah yer üzündə bir çox insan cəmiyyəti yaratmışdır. Bu cəmiyyətlərdən bəziləri özlərinə göndərilən elçilərin söylədiklərini yalan sayıb, onları elçi olaraq qəbul etmədiklərini söyləmişdirlər. Elcə də, onların sözlərini dinləmədikləri, Allahın əmrlərini yerinə yetirmədikləri üçün cəzlandırılmışdırlar. Allah peyğəmbərləri ilə, Öz sözünə uaymayacaqları təqdirdə, dünyada da pis qarşılıq alacaqlarıyla bu cəmiyyətləri xəbərdar etmişdir. Buna baxmayaraq, bu cəmiyyətlər peyğəmbərlərə qarşı çıxmağa və onlara böhtan atmağa başlamışdırlar, hətta onları öldürmək istəyəcək qədər aqressivləşmişdirlər. Bundan ötrü də, Allah onlara layiq olduqları və alacaqlarını söylədiyi qarşılığı vermişdir. Bu cəmiyyətlərin yerlərini zaman keçdikcə yeni cəmiyyətlər almışdır. Quranda Allah belə cəmiyyətlərin vəziyyətini bu cür bildirir:

**Məgər onlar özlərindən əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi görmədilərmi? Biz onlara yer üzündə sizə vermədiyimiz imkanları vermişdik. Onların üzərinə göydən bol-bol yağış yağdırmış və evlərinin altından çaylar axıtmışdıq. Biz onları günahlarına görə həlak etdik və onlardan sonra başqa nəsillər yaratdıq. (Ənam surəsi, 6)**

Peyğəmbərlərin həyatlarından verəcəyimiz nümunələrdə Allahı rədd edən bu cəmiyyətlərlə yanaşı, Allaha iman edən insanların nümunəvi davranışlarından da danışacağıq.

## İlk insan və ilk peyğəmbər: Hz. Adəm

Xatırlayırsınızsa insanın yaradılışından bəhs edərkən ilk insanın hz. Adəm olduğunu söyləmişdik. Hz. Adəm eyni zamanda ilk peyğəmbərdir. Yəni Allah ilk

insan nəslinə dərhal bir peyğəmbər də göndərmiş və onlara dinlərinin nə olacağını və Allah üçün nələr etməli olduqlarını öyrətmişdir.

Allah ilk insan olan Adəm peyğəmbərə danışmağı və hər şeyin adını öyrətmişdir. Bu, Quranda belə bildirilir:

**Və Adəmə adların hamısını öyrətdi... (Bəqərə surəsi, 31)**

Bunun nə qədər əhəmiyyətli olduğunu düşünün. Allahın yaratdığı canlılar içində yalnız insan danışaraq razılığa gəlir. Danışmaq insana məxsus xüsusiyyətdir. Ətrafındakı əşyaları tanıması və onlara bir ad verməsi bunları Allahın ilk olaraq Adəm peyğəmbərə öyrətməsi sayəsində olmuşdur.

Adəm peyğəmbərdən sonra gələn nəsil də, hazırkı dövrdə dünyada yaşayan insanlar kimi, düşünə bilən, danışan, hissləri olan, sevinən, kədərlənən, paltar geyinən, əşyalardan istifadə edən, incəsənət və musiqi qabiliyyəti olan insanlar idi. Elm adamlarının araşdırmaları nəticəsində tapılan ən qədim insan qalıqlarının yanında əşyaların, fleyta kimi musiqi alətlərinin, divar rəsmlərinin tapılması, bu söylədiklərimizin tarixi dəlilləridir.

Yəni bəzi insanların iddia etdiyi kimi ilk insanlar heç vaxt yarı insan-yarı meymun kimi vəhşi varlıqlar olmadılar. Onsuz da heç bir meymunun və ya başqa canlının danışa, düşünə və insan kimi davrana bilməyəcəyini bilirsiniz. Bütün bu qabiliyyətləri Allah insana xüsusi olaraq vermişdir (bu mövzu ilə əlaqədar daha əvvəl yazılmış olan "uşaqlar, Darvin yalan söylədi" adlı kitabımızda çox ətraflı məlumat toplaya bilərsiniz).

Lakin ilk insanın hz. Adəm olduğunu qəbul etmək istəməyən bəzi insanlar özlərinə görə müxtəlif iddialar ortaya atmışdırlar. İlk insana saxta şəxsiyyət geyindirmişdirlər. Bunların yalan iddialarına əsasən insan və meymun eyni canlıdan, yəni ortaq bir atadan gəlmiş və zaman keçdikcə dəyişikliklərə uğrayaraq bugünkü hallarına çatmışdırlar. Bu qəribə iddianın necə reallaşdığını soruşsanız tək cavab var: "Təsadüfən oldu". "Bəs bunu isbat edəcək dəlil vardır mı?" sualını versəniz də heç bir dəlil göstərə bilməzlər. Yəni insanın başqa bir canlıdan yaranıb bugünkü halına gəldiyi iddiasını sübut edən tək bir qalıq belə yoxdur.

"Keçmişə aid qalıqlar nələrdir?" deyə soruşsanız, bunu belə izah edə bilərik: Bəzi canlılar öldükləri zaman arxalarında izlərini qoyub gedərlər və bu izləri, yəni qalıqları milyonlarla il heç çürümədən qala bilər. Ancaq bunun baş verməsi üçün həmin canlının hava ilə təmasının birdən-birə kəsilməlidir. Məsələn, bir quş yerdə qonmuş halda durarkən üzərinə birdən-birə qum yığını tökülsə və oradaca ölsə, bu quşun qalıqları dövrümüzə qədər gəlib çata bilər. Eləcə də, ağaclardan axan və bala bənzəyən kəhrəba adlı mayelər var. Bəzən bu kəhrəba, bir böcəyin üzərinə axar və

böcək bu kəhrəbanın içində qalıb ölər. Beləliklə də, sərtləşərək milyonlarla il heç çürümədən dövrümüzə qədər gəlib çata bilər. Biz də beləliklə çox qədimdən yaşamış canlılar barədə məlumat əldə edə bilərik. Məhz canlılardan qalan bu qalıqlara "fosil" deyilər.

İlk insanın meymun bənzəri bir canlıdan meydana gəldiyini irəli sürənlər, bununla əlaqədar bir fosil göstərə bilməzlər. Yəni dünyada heç vaxt yarı meymun-yarı insan kimi qəribə bir canlıya aid fosil tapılmamışdır. Lakin bu insanlar bu səhvlərini gizlətmək üçün saxta fosillər, saxta şəkillər, saxta təsvirlər düzəltmiş və bunları dərsliklərə belə yerləşdirmişdirlər.

Əlbəttə ki, bu saxtakarlıqları zamanla ortaya çıxmış və elmi saxtakarlıqlar adı altında hər yerdə yazılmışdır. Yəni bu insanların vəziyyəti əvvəlcə izah etdiyimiz çizgi film qəhrəmanın vəziyyəti kimidir. Bu cür insanlar inadkar və ağılsız olduqları üçün, Allahın varlığını qəbul etmələri və hər şeyi Onun yaratdığını dərk etmələri sanki qeyri-mümkündür. Bunların sayları getdikcə azalır. Lakin hələ də bəzi məktəblərdə, qəzetlərdə, jurnallarda bu yanlış düşüncələrini yaymağa çalışırlar. İnsanları inandırmaq üçün də söylədiklərinin elmi və doğru olduğunu israrla təkrarlayırlar. Halbuki ağıllı elm adamlarının ortaya qoyduğu istənilən araşdırma nəticələri və dəlillər, meymunun insana çevrilmədiyini elmi cəhətdən də sübut etmişdir.

Hz. Adəm, yəni ilk insan bugünkü insanlar kimidir və Allah onu xüsusi olaraq yaratmışdır. Bunlar Allahın bizə Quranda bildirdiyi həqiqətlərdir. Hz. Adəmlə əlaqədar olaraq Allahın Quranda bizə xəbər verdiyi çox əhəmiyyətli bir mövzu daha var: Bütün insanların düşməni olan şeytanla hz. Adəm arasında yaşanan hadisələr...

## - İnsanın ən böyük düşməni: Şeytan

Yəqin ki, şeytanla əlaqədar bəzi şeylər bilirsiniz. Ancaq sizi çox yaxşı tanıdığını və sizi hər hansı yolla mütləq aldatmağa çalışdığını bilirsinizmi? Bəs bəzi hallarda özünü dostunuz kimi göstərərək, sizi aldatmağa çalışan şeytanın əsl məqsədini bilirsiniz mi? Gəlin ən başından başlayaq və şeytanın niyə bizim ən böyük düşmənimiz olduğunu xatırlayaq. Bunun üçün sizə hz. Adəm və şeytan arasında yaşanan və Quranda bildirilən bir hadisədən danışaq.

Qurana görə şeytan; hz. Adəmdən etibarən bütün insanları Allah yolundan azdırmaq üçün çalışan və qiyamətə qədər də bunun üçün çalışacaq varlıqların ümumi adıdır. Şeytanların ən böyüyü isə, hz. Adəmin yaradılmasıyla birlikdə Allaha üsyan edən İblisdir.

Qurandan öyrəndiyimizə görə Allah hz. Adəmi yaratmış və mələklərdən hörmət ifadəsi olaraq ona səcdə etmələrini istəmişdi. Mələklər Allahın əmrini yerinə yetirdiyi halda, İblis hz. Adəmə səcdə etmədi. Özünün insandan daha üstün varlıq

olduğunu irəli sürdü. İtaətsiz və utanmaz olduğuna görə Allahın hüzurundan qovuldu.

Allahın hüzurundan ayrılmadan əvvəl, bu vəziyyətə düşməsinə səbəb olan insanları özü kimi azdırmaq üçün Allahdan möhlət istədi. Şeytanın məqsədi özünə verilən möhlət ərzində insanları Allah yolundan azdırmaqdı. Bunun üçün hər yolu sınayacaq və insanların əksəriyyətini özünə uymasını təmin edəcəkdi. Allah şeytanı və ona uyanları cəhənnəmə dolduracağını bildirdi. Burada danışdığımız hadisələr Quranda belə xəbər verilir:

**Sizi xəlq etdik, sonra sizə surət verdik, sonra da mələklərə: "Adəmə səcdə edin!" dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı.**

**Allah dedi: "Mən sənə əmr etdikdə sənə səcdə etməyə nə mane oldu?" İblis dedi: "Mən ondan daha üstünəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan!"**

**Allah dedi: "Buradan aşağı en! Burada təkəbbürlük göstərmək sənə yaramaz. Çıx get, çünki sən alçaldılmışlardansan.**

**İblis dedi: "Onların dirildiləcəyi günə qədər mənə möhlət ver".**

**Allah dedi: "Şübhəsiz ki, sən möhlət verilənlərdənsən.**

**İblis dedi: "Sən məni yoldan çıxartdığına görə mən də Sənin düz yolunun üstündə oturub insanları tovlayacağam.**

**Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən".**

**Allah buyurdu: "Oradan mənfur və qovulmuş halda çıx! Onlardan hər kəs sənin ardınca getsə, əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam. (Əraf surəsi, 11-18)**

Şeytan Allahın hüzurundan qovulduqdan sonra, qiyamətə qədər davam edəcək mübarizəsinə başladı. İnsanları aldadaraq yoldan çıxartmaq üçün onların yanlarına gəldi. Hiyləgərcəsinə tələlər qurdu, insanları heç ağıllarına gəlməyəcək üsullarla aldatdı. İndi daha yaxşı anladığınız kimi, şeytan insana çox hiyləgərcəsinə yaxınlaşan bir düşməndir. Bundan ötrü də, ondan qorunmaq üçün çox böyük diqqət göstərməlisiniz.

Unutmayın ki, şeytan hazırda da sizi aldatmaq üçün gözləyir. Bu kitabı oxumağınıza, oxuduqlarınızı düşünməyinizə mane olmağa çalışır. Sizi, bir dostunuza yaxşılıq etməkdən, böyüklərinizin sözünə qulaq asmaqdan, Allaha şükr etməkdən və dua etməkdən, daim doğruları söyləməkdən uzaqlaşdırmağa çalışır.

Qətiyyən şeytanın sizi aldatmasına, yalanları ilə gözəl əxlaqlı insan olmağınıza, vicdanınızın səsini dinləyərək hərəkət etməyinizə mane olmasına icazə verməyin.

Ağlınıza pis bir düşüncə gəldiyi vaxt və ya canınız gözəl bir şey etmək istəmədikdə dərhal şeytandan Allaha sığının və Allahdan kömək istəyin. Allahın Quranda bildirdiyi kimi şeytanın iman edən insanlar üzərində heç bir təsirinin olmayacağını da əsla unutmayın.

## Hz. Nuh peyğəmbər

Nuh Peyğəmbər də digər peyğəmbərlər kimi qövmünü, yəni yaşadığı cəmiyyəti doğru yola çağırmışdır. Allaha inanmalarını, hər şeyin Yaradıcısının Allah olduğunu, başqa şeylərə tapınmamalarını, əks halda Allahın onları cəzalandıracağını söyləmişdir. Bu hadisə Quranda belə bildirilir:

**Biz Nuhu öz xalqına elçi göndərdik. O dedi: "Həqiqətən, mən sizin üçün ancaq açıq-aydın xəbərdar edib qorxudan bir elçiyəm.**

**Allahdan başqasına ibadət etməyin! Mən sizi yaxalayacaq məşəqqət gününün əzabından qorxuram". (Hud surəsi, 25-26)**

Lakin özünə çox az insan inanmışdır. Bundan ötrü də, Allah Nuh peyğəmbərə böyük bir gəmi düzəltməsini əmr etmişdir. İnananların bu gəmi sayəsində xilas olacağını bildirmişdir.

Nuh peyğəmbərin, ətrafda dəniz olmadığı halda, gəmi düzəltməsi Allaha inanmayanları çox təəccübləndirmiş və buna görə də onunla lağ etmişdirlər. Halbuki inanmayanlar başlarına gələcəkləri bilmir, lakin Allah bilir. Gəmi hazır olduqdan sonra, günlərlə davam edən çox şiddətli yağışlar yağmağa başlamış, hər tərəfi sular bürümüş, qurular sanki dənizə çevrilməyə başlamışdır. O vaxt baş verən bu fəlakət indiki vaxtda elm adamları tərəfindən də təsdiqlənmişdir. Orta Şərq bölgəsində indi dağ olan bir çox ərazinin bir vaxtlar sularla örtülü olduğuna dair dəlillər tapılmışdır.

Televiziyada müxtəlif ölkələrdə yaşanan sel fəlakətlərini görmüsünüz. Belə fəlakətlərdə, insanlar damlara çıxıb kömək gəlməsini gözləyərlər, onlara ancaq motorlu qayıqlarla və ya vertolyotlarla kömək çatdıra bilərlər. O dövrdə isə hz. Nuhun gəmisindən başqa onları xilas edəcək heç nə olmamışdır. Məhz Nuh peyğəmbərin dövründə baş verən və "Nuh tufanı" adlandırılan bu hadisə, o dövrdəki peyğəmbərə inanmayan, inancsız insanları cəzalandırmaq üçün Allahın xüsusi olaraq verdiyi cəzadır. Allahı dinləməyən, Onun Nuh peyğəmbər vasitəsilə göndərdiyi xəbərdarlıqlara qulaq asmayan, özündən razı, pis xarakterli insanların heç biri bu

gəmiyə minməmiş, özlərini Allahdan başqa şeylərin qoruyacağını güman etmişdirlər. Allaha deyil, başqa varlıqlara güvənmişdirlər.

Halbuki Allah istəməsə bizi heç nə qoruya bilməz. Bu həqiqəti bilməyən insanlar təpələrə, yüksək yerlərə çıxmalarına baxmayaraq, nəhəng dalğalar onlara da çatmış və beləliklə də, boğulmuşdurlar. Çox az sayda insan Allaha inanıb güvənmiş, Nuh peyğəmbərlə birlikdə gəmiyə minmiş və xilas olmuşdur. Özləri ilə birlikdə Allahın əmri ilə müxtəlif növ heyvanların erkək və dişisindən götürmüşdürlər. Quranda bu mövzu belə bildirilir:

**Onlardan əvvəl Nuh qövmü də yalançı hesab etmişdi. Onlar qulumuzu yalançı sayıb: "O, dəlidir!" dedilər və ona təzyiq göstərib mane oldular.**

**O, Rəbbinə dua edib: "Həqiqətən mən məğlubiyyətə uğradım. Artıq sən (bu kafirlərdən) intiqam al!" dedi.**

**Biz də göyün qapılarını leysan yağışı ilə açdıq.**

**Yeri yarıb bulaqlar qaynatdıq. Göydən tökülən və yerdən çıxan sular əzəldən yazılmış bir iş üçün bir-birinə qovuşdu.**

**Biz onu taxtalardan pərçimlənib mismarlanmış gəmidə daşıdıq.**

**İnkar edilmiş peyğəmbərə mükafat olaraq o gəmi Gözlərimiz önündə üzüb gedirdi.**

**Biz onu nəsillərə ayə olaraq saxladıq. Amma öyüd alıb düşünən varmı?**

**Görəydin Mənim əzabım və qorxutmağım necə oldu! (Qamər surəsi, 9-16)**

Bütün peyğəmbərlər göndərildikləri cəmiyyətlərə bənzəri şəkildə eyni məlumatları çatdırıblar və onları Allaha ibadət etməyə çağırıblar. Bu vəzifələrini yerinə yetirərkən də həmin insanlardan hər hansı qarşılıq istəməyiblər. Çünki Allahın sözlərini öz cəmiyyətlərinə çatdıran bu insanların heç bir mənfəətləri yoxdur. Yalnız Allah onlara bu vəzifəni verdiyi üçün və Allahı çox sevdikləri, Onun da özlərini sevməsini istədikləri və Ondan qorxub çəkindikləri üçün bunu yerinə yetirərlər və bu əsnada başlarına bir çox hadisə gələr; sıxıntıya, əziyyətə, böhtana məruz qalarlar. Hətta keçmişdə bəzi peyğəmbərlər inkarçılar tərəfindən öldürülmək istənilmiş, içlərindən öldürülənlər də olmuşdur. Ancaq peyğəmbərlər yalnız Allahdan qorxan insanlar olduqları üçün, qarşılaşdıqları heç bir çətinlik onları doğru yoldan döndərə bilməmişdi. Yaşadıqları çətinliklərin qarşılığını Allahın dünyada və ölümdən sonrakı axirət həyatında tam şəkildə verəcəyini heç vaxt unutmamışdıırlar.

## Hz. İbrahim peyğəmbər

Bu fəsildə Quranda adı keçən bütün peyğəmbərlərdən bəhs etməyəcəyik. Lakin, Quranda bəzi xüsusiyyətləri xüsusi şəkildə vurğulanan peyğəmbərlərin həyatlarından nümunələr verəcəyik.

Hz. İbrahim də bu peyğəmbərlərdən biridir. O, hələ çox gənc yaşda olarkən və ətrafında özünə Allahın varlığından danışan heç kəs olmadığı halda, öz-özünə səmanı araşdıraraq bütün varlıqları Allahın yaratdığını görmüşdü. Bu mövzu Quranda belə bildirilir:

**Gecənin qaranlığı onu bürüdükdə o, ulduz görüb: "Bu mənim Rəbbimdir!" dedi. O batdıqda isə: "Mən batanları sevmirəm!" dedi.**

**Doğan ayı gördükdə: "Bu mənim Rəbbimdir!" dedi. O batdıqda isə: "Əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən azmış adamlardan olardım" dedi.**

**Doğan günəşi gördükdə: "Bu mənim Rəbbimdir, bu daha böyükdür!" dedi. O batdıqda isə dedi: "Ey qövmüm! Həqiqətən, mən sizin Allaha şərik qoşduqlarınızdan uzağam!**

**Doğrudan da mən, hənif olaraq (Allahı tək yaradıcı qəbul edən) üzümü göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən (Allaha şərik qoşan) deyiləm". (Ənam surəsi, 76-79)**

Eləcə də, İbrahim peyğəmbər də yaşadığı cəmiyyəti Allahdan başqasına tapınmamaları üçün belə xəbərdar etmişdir:

**Onlara İbrahimin əhvalatını da oxu.**

**Bir zaman o öz atasına və tayfasına: "Nəyə ibadət edirsiniz?" demişdi.**

**Onlar dedilər: "Biz bütlərə (öz əlləriylə düzəltdikləri və dəyər verdikləri müxtəlif heykəllərə) ibadət edir və onlara tapınmaqda davam edirik".**

**O dedi: "Onlara yalvardığınız zaman sizi eşidirlərmi?**

**Yaxud sizə xeyir və ya zərər verirlərmi?"**

**Onlar dedilər: "Xeyr, amma biz öz atalarımızın belə etdiklərini gördük".**

**O dedi: "Siz nəyə ibadət etdiyinizi görürsünüzmü?**

**Həm siz, həm də ulu babalarınız.**

**Aləmlərin Rəbbindən başqa, onların hamısı mənim düşmənimdir.**

**O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir;**

**O Rəbb ki, məni yedirdir və içirdir;**

**O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir;**

**O Rəbb ki, məni öldürəcək, sonra dirildəcəkdir;**

**O Rəbb ki, (axirətdəki) haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram. (Şuəra surəsi, 69-82)**

Hz. İbrahim, o dövrdəki padşaha və xalqa, yuxarıdakı kimi; "Allaha iman edin" deyərək dini izah etdikdən sonra, ona düşmən olanlar onu öldürməyə cəhd etdilər. Böyük alovlu od yandırıb hz. İbrahimi içinə atdılar. Lakin Allah onu qorudu və onu odun içindən sapsağlam çıxartdı. Bu hadisə Quranda belə bildirilir:

**Qövmünün cavabı isə ancaq: "Ya onu öldürün, ya da yandırın!" demələri oldu. Lakin Allah onu oddan qorudu. Doğrudan da, bunda mömin adamlar üçün mənimsəməli bir ibrət vardır. (Ənkəbut surəsi, 24)**

**Biz: "Ey od! İbrahim üçün sərin və zərərsiz ol!" dedik. (Ənbiya surəsi, 69)**

Hər şeyi yaradan və nəzarət edən Allahdır. Od da Allahın əmri ilə İbrahim peyğəmbəri yandırmamışdı. Məhz bu, Allahın möcüzəsidir. Allahın gücünün hər şeyə çatdığını çox yaxşı göstərən nümunələrdən biridir. Çünki yer üzündəki hər şey Allahın izni ilə baş verər. O, istəmədiyi müddətcə insana heç nə zərər verə bilməz, heç kəs başqa bir insanı öldürə bilməz. Allah Quranda belə bildirir:

**Hər bir kəs ancaq Allahın izni ilə ölər. Belə ki, bu vaxtı müəyyən edilmiş bir yazıdır (tale yazısı).... (Al-i İmran surəsi, 145)**

Allahın İbrahim peyğəmbər üçün istədiyi ölümün vaxtı gəlmədiyi üçün, oda atılmasına baxmayaraq ölməmiş, Allah onu oradan xilas etmişdir.

Allah, Quranın digər bir ayəsində də İbrahim peyğəmbərin çox üstün əxlaqa sahib olduğunu belə bildirir:

**Həqiqətən, İbrahim həlim, həssas və könüllü surətdə Ona üz tutan bir şəxs idi. (Hud surəsi, 75)**

Allah yaxşı xasiyyətli və özünə çox bağlı olan insanları sevər. Bu ayədən də anladığımız kimi, alicənab olmaq, üsyankar ruhlu olmamaq, Allahın əmrlərinə tam təslimiyyətlə riayət etmək Allah qatında çox əhəmiyyətli xüsusiyyətlərdəndir.

## Hz. Musa Peyğəmbər

Hz. Musa da Quranın bir çox yerində yaşadığı hadisələrdən bəhs edilən bir peyğəmbərdir. Özünə müqəddəs kitablardan biri olan Tövrat göndərilmişdir. Lakin Tövrat, Musa peyğəmbərin ölümündən sonra insanlar tərəfindən dəyişdirildiyi üçün dövrümüzdə əsil halı yoxdur. Amma dəyişdirilmiş formasını yəhudilər hələ də müqəddəs kitab sayaraq oxuyurlar. Dövrümüzdəki yəhudilərin oxuyub inandıqları bu kitab, Musa peyğəmbərin gətirdiyi müqəddəs kitab olmadığı üçün onlar doğru inanca sahib deyildirlər.

Biz hz. Musanın həyatı və gözəl əxlaqı ilə əlaqədar bütün məlumatları Qurandan öyrənirik. Quranda bildirildiyinə görə, qədim Misir hökmdarları "firon" adlanırdı. Bunların bir çoxu Allaha inanmayan, özlərini müqəddəs insan hesab edən, çox təkəbbürlü insanlardı. Musa peyğəmbəri də Allah bu fironların ən zalımlarından birinin yanına göndərmişdi.

Bizə hz. Musanın həyatından xəbər verən ayələri oxuyarkən diqqət yetirməli olduğumuz əhəmiyyətli bir mövzu, taledir. Hz. Musanın Fironun sarayına göndərilməsi hadisəsi belə baş vermişdir:

Tam hz. Musanın doğulduğu əsnada, Firon zalım bir əmr vermiş və ölkəsindəki bütün oğlan uşaqlarının öldürülməsini istəmişdir. Hz. Musa da ölüm təhlükəsiylə üzləşmişdir. Ancaq Allah hz. Musanın anasına oğlunu suya buraxmasını söyləmiş və sonunda onu Fironun götürəcəyini və onun özünə geri qayıdıb peyğəmbər olacağını bildirmişdi. Anası hz. Musanı bir sandığın içinə yerləşdirərək suya buraxdı. Çayda sərbəst şəkildə hərəkət edən bu sandıq bir müddət sonra Fironun arvadı tərəfindən tapıldı və hz. Musa hələ körpə vaxtında böyüdülmək üçün saraya aparıldı. Beləliklə də, Firon, gələcəkdə özünə Allahı tanıdacaq, yanlış fikirlərinə qarşı çıxacaq insanı, bilmədən yanına almış və böyütmüşdür. Hər şeyi bilən Allah, Fironun hz. Musanı çayda tapıb, onu sarayında böyüdəcəyini də bilir.

Hz. Musa doğulanda onun bir sandıq içində suya buraxılacağı, Fironun onu tapacağı, axırda isə hz. Musanın bir peyğəmbər olacağı bəlli idi. Çünki Allah onun taleyini bu cür yazmışdı. Allah bunu hz. Musanın anasına bildirmişdir.

Burada hz. Musanın həyatının hər anının ən incə nöqtəsinə qədər Allah Qatında taledə müəyyənləşdirilmiş olduğu və eynilə müəyyənləşdirildiyi kimi gerçəkləşdiyinə diqqət yetirilməlidir.

Hz. Musa böyüdükdən sonra Misirdən ayrıldı, bir müddət başqa bir ölkədə yaşadı və sonra da Allah onu peyğəmbərlik vəzifəsini verdi. Eləcə də, Musa peyğəmbərə köməkçi olaraq qardaşı hz. Harunu göndərdi.

İkisi birlikdə bu zalım Fironun qarşısına çıxıb Allahı və Onun əmrlərini çatdırdılar. Musa peyğəmbərin gördüyü iş çox çətin idi. Çünki Allahı inkar edən çox zalım bir hökmdarın qarşısına çıxıb çəkinmədən onu, Allahı tanımağa və Ona ibadət etməyə çağırmışdı. Quranda hz. Musanın bu çağırışı belə bildirilir:

**Onlardan (peyğəmbərlərdən) sonra Musanı ayələrimizlə (sözlərimiz-dəlillərimizlə) Firon və onun əyanlarına elçi göndərdik. Onlar isə buna (ayələrimizə) haqsızlıq etdilər. Bir gör fəsad törədənlərin aqibəti necə oldu.**

**Musa dedi: "Ey Firon! Həqiqətən, mən aləmlərin Rəbbi tərəfindən (yəni hər şeyi yaradıb nizama qoyan tərəfindən) göndərilmiş bir elçiyəm.**

**Mənim məsuliyyətimdir ki, Allah barəsində yalnız həqiqəti deyim. Mən Rəbbinizdən sizə açıq-aydın dəlillər gətirmişəm. Elə isə İsrail oğullarını (Musanın öz qövmü) mənimlə göndər". (Əraf surəsi, 103-105)**

Firon isə özünü bəyənmiş və təkəbbürlü bir insan idi. Bütün gücün özündə olduğunu zənn edərək Allaha üsyan etmişdi. Halbuki Firona bu gücü, mal-dövləti və torpaqları verən də Allahdır. Amma Firon ağılsız olduğu üçün bu həqiqəti anlaya bilməmişdi.

Hz. Musaya qarşı çıxan və iman etməyən Firon, daha əvvəl də söylədiyimiz kimi, çox zalım bir insan idi. Musa peyğəmbərə inanan cəmiyyəti (İsrail oğullarını) əsir tutur, onları kölə olaraq işlədirdi. Sonunda Fironun hz. Musanı və bütün inananları yox etməyi düşündüyü aydın olduqda bu cəmiyyət hz. Musanın başçılığı altında Misirdən qaçdı. İsrail oğulları və hz. Musa, önlərinə çıxan dənizlə arxalarından gələn Fironun ordusu arasında qaldılar. Amma Musa peyğəmbər belə çıxılmaz kimi görünən bu vəziyyətdə belə qətiyyən ümidini və Allaha olan güvənini itirmədi. Allah bir möcüzə yaradaraq inanların keçməsi üçün dənizi iki yerə ayıraraq bir yol açdı. Bu, Allahın Musa peyğəmbərə verdiyi böyük möcüzələrindən biridir. İman edənlər keçdikdə dəniz əvvəlki halına qayıtdı, beləliklə də, onları təqib edən Firon və ordusu suda boğuldu.

Allah Quranda bu möcüzəvi hadisəni belə bildirir:

**Bunların əməli Firon nəslinin və onlardan əvvəlkilərin əməlinə bənzəyir. Onlar Rəbbinin ayələrini yalan hesab etdilər, Biz də onları günahlarına görə məhv etdik. Firon nəslini dənizdə qərq etdik. Onların hamısı zalım idi. (Ənfal surəsi, 54)**

Öləcəyini anladığı zaman Firon Allaha inandığını söyləyərək özünü qurtarmasını istəmişdir. Lakin son andakı bu peşmançılığı fayda verməmişdir. Çünki Allah etdiyimiz xətalardan, ancaq səmimi olaraq peşmançılıq hissi duyacağımız təqdirdə bizi bağışlayacağını bildirmişdir. Allah çox bağışlayandır. Amma insanın öləcəyini anladığı vaxtkı peşmançılıq hissi, səmimi və gec olmadan duyulan peşmançılıq hissi olmadığından fayda verməyə bilər. Fironun da başına bu gəlmişdir. Onda biz bunu unutmamalıyıq: Həyatımız boyu Allahın məmnun olacağı şəkildə yaşamalı və Fironun etdiyi xətanı etməməliyik. Çünki həyatımızı Qurana uyğun gözəl əxlaqla yaşamasaq, Quranda əmr edilənlərə əməl etməsək, ölüm anında peşman olmağımız fayda verməyə bilər.

## Hz. Yunis peyğəmbər

İnsan nə qədər çətin və çarəsiz vəziyyətdə qalsa da, daim Allaha güvənməli və Ondan kömək istəməlidir. Bir qədər əvvəl də bəhs etdiyimiz kimi, Musa peyğəmbər Fironun ordusu ilə önlərindəki dəniz arasında qaldıqda əsla ümidsizliyə qapılmamış və Allaha güvənmişdi. Məhz Yunis peyğəmbərin davranışı da belə gözəl davranışın nümunələrindəndir.

Yunis peyğəmbər əvvəlcə Allahın özünə verdiyi vəzifəyə baxmayaraq, xəbərdar etməli olduğu cəmiyyəti tərk etmişdi. Bundan ötrü də, Allah onu müxtəlif sınaqlardan keçirtdi. Hz. Yunis əvvəlcə mindiyi gəmidəki insanlar tərəfindən dənizə atıldı. Sonra dənizdə özünü nəhəng bir balıq uddu. Bu hadisələr nəticəsində hz. Yunis etdiklərinə görə peşman oldu və Allaha sığınıb ona dua etdi. Quranda bu hadisə belə bildirilir:

**Zün-Nunu (Yunisi) da yada sal! Bir zaman o qəzəbli halda qövmündən ayrılıb getmiş və ona gücümüz çatmayacağını güman etmişdi. Sonra da (balığın qarnındakı) zülmətlər içində yalvarıb demişdi: "Səndən başqa ilah yoxdur! Sən ucasan! Mən isə, həqiqətən, zalımlardan olmuşam!"**

**Biz onun duasını qəbul etdik və onu qəm-qüssədən qurtardıq. Biz iman edənləri belə xilas edirik! (Ənbiya surəsi, 87-88)**

Əgər hz. Yunis Allaha güvənib, ona dua etməsəydi, başına bir hadisə gələcəkdi. Belə ki, Allah bu hadisəni Quranda belə bildirmişdir:

**Əgər o, Allahı (bol-bol) təqdis edənlərdən (yada salanlardan, ucaldanlardan) olmasaydı,**

**Balığın qarnında Qiyamət gününə qədər qalardı.**

**O, halsız olduğu vəziyyətdə onu çılpaq bir yerə çıxartdıq.**

**Onun başı üstündə sıx və böyük yarpaqlı balqabağa bənzər növdən olan bir bitki bitirdik.**

**Biz onu yüz mindən də daha çox adama peyğəmbər göndərdik. (Saffat surəsi, 143-147)**

Allah Yunis peyğəmbəri tamamilə çıxılmaz kimi görünən bir vəziyyətdən xilas etmişdir. Bu, Allahdan heç vaxt ümid kəsilməyəcəyinə dair açıq bir işarədir. Quranda bildirilən bu hadisələri oxuyub öyrəndiyimizə görə hər nə çətinliklə qarşılaşsaq da, daim Allaha dua edib Ondan kömək diləməliyik.

## Hz. Yusif peyğəmbər

Quranda Yusif peyğəmbərin yaşadığı hadisələr çox geniş və ətraflı şəkildə izah edilmişdir. Burada qısa şəkildə izah edib, hz. Yusifin əxlaqından necə nümunə götürməli olduğumuzu görəcəyik.

Hz. Yusif, Yaqub peyğəmbərin oğullarından biridir. Qardaşları onu qısqandıqları üçün, onu kiçik yaşında çöldə bir quyuya atıb atalarına da; "onu canavar yedi" deyərək yalan danışmışdırlar. Quyudan su çəkən bir karvan onu tapıb Misirdə bir idarəçinin sarayına aparmışdır. Orada yaşadığı bir hadisədən ötrü böhtana məruz qalıb zindana atılmış və illərlə zindanda qalmışdır.

Sonra günahsız olduğu aydınlaşmış, zindandan çıxarılmış, çox etibarlı və ağıllı bir insan olduğu üçün Misirdə xəzinələrin başına gətirilmiş, idarəçi olmuşdur. Bir vaxtlar özünə əziyyət vermiş qardaşlarını da bağışlamışdır.

Yusif Peyğəmbər çox üstün əxlaqa sahibdir. Allah onu bir dəfə sınamış, quyu kimi qurtulması qeyri-mümkün görünən bir yerdən çıxardıb ən sonunda onu üstün bir mövqeyə gətirmişdir. Yusif peyğəmbər başına gələn hər hadisə qarşısında Allaha dua etmiş, Ona üz tutmuşdur. Günahsız olmasına baxmayaraq, illərlə zindanda qaldığı halda, bunun Allahın imtahanı olduğunu unutmamışdır. Zindanda olarkən yanındakılara daim Allahın gücündən və böyüklüyündən danışmışdır. Bu qədər çətin şərtlər altında Allaha olan güvən və bağlılığını qoruması, bizə onun çox üstün əxlaq sahibi olduğunu göstərir.

## Hz. Əyyub peyğəmbər

İnsanın başına gələn şeylərə səbir etməsi çox əhəmiyyətli bir müsəlman xüsusiyyətidir. Hz. Əyyub özünə çox əzab verən bir xəstəliklə sınanmışdır. Amma Əyyub peyğəmbər xəstəliyinin sağalması üçün yalnız Allahdan kömək istəmiş və Ona güvənmişdir. Allah onun duasından sonra xəstəliyinin necə yaxşılaşacağını özünə bildirmişdir. Hz. Əyyubun üstün əxlaqı və duası Quranda belə bildirilir:

**Qulumuz Əyyubu da yada sal! Bir zaman o öz Rəbbinə yalvarıb demişdi: "Şeytan mənə bəla və əzab toxundurmuşdur!"**

**Biz ona dedik: "Ayağını hərəkət etdir (yerə vur)! Budur yuyunmaq və içmək üçün sərin su!"**

**...Həqiqətən, Biz onu səbir edən gördük. Necə də gözəl qul idi! O, daima Allaha üz tutardı. (Sad surəsi, 41-42, 44)**

Bəzi insanlar, xəstəlik, əzab, sıxıntı kimi çətinliklərlə üzləşdikləri zaman dərhal ümidsizliyə qapılarlar. Bəziləri isə üsyankar rəftar göstərərlər. Halbuki bunlar çox yanlış düşüncələrdir. Hz. Əyyub nümunəsi bizə, Allahın ən üstün qullarına belə müxtəlif dərdlər və sıxıntılar verə biləcəyini göstərir. Buradakı məqsəd, insanı kamilləşdirmək və Allaha olan bağlılığını sınamaqdır.

Biz də üzləşdiyimiz bütün çətinliklər qarşısında Allaha dua etməli və Ona güvənməliyik. Hz. Əyyub kimi səbir edən və daima Allaha üz tutan insanlar olmalıyıq. Belə olduqda Allah həm dərdlərimizi yox edər, həm də yaşadığımız çətinliklərə qarşılıq olaraq dünyada və axirətdə bizə böyük mükafat verər.

## Hz. İsa peyğəmbər

Allah İsa peyğəmbəri xüsusi yaradılışla yaratmışdır. Allah onu da Adəm peyğəmbər kimi atası olmadan dünyaya gətirmişdir. Bu, Quranda belə bildirilir:

**Şübhəsiz ki, Allah Qatında İsanın məsəli Adəmin məsəli kimidir. Onu torpaqdan yaratdı, sonra ona "ol" deməsiylə o da oldu. (Ali İmran surəsi, 59)**

Həzrəti İsanın adı Quranda, anasının adıyla birlikdə, yəni Məryəm oğlu İsa olaraq çəkilir. Hz. Məryəm Allahın bütün qadınlar üçün nümunə etdiyi çox qiymətli bir müsəlmandır. Olduqca iffətli və Allaha çox bağlı bir mömindir. Allah ona, uşağının peyğəmbər olacağını müjdələmişdir.

Allah Məryəm oğlu İsanı peyğəmbər etmiş və ona müqəddəs kitablardan olan İncili vermişdir (İncil də hz. İsadan sonra pis niyyətli insanlar tərəfindən dəyişdirilmişdir. Bu gün əlimizdə əsil İncil yoxdur). Allah hz. İsaya bir çox möcüzələr verərək, cəmiyyətə həqiqətləri çatdırmaq vəzifəsini də vermişdir. Hələ körpə vaxtında danışaraq, Allahdan bəhs etmişdir. İsa peyğəmbər özündən sonra gələcək olan peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-i də müjdələmişdir. Peyğəmbərimiz (s.ə.v)-in bir adı da Əhməddir. Hz. İsanın peyğəmbərimiz (s.ə.v)-i müjdələməsi Quranda bizə belə bildirilir:

**Bir zaman Məryəm oğlu İsa demişdi: "Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl nazil edilmiş Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə sizi müjdələyən bir elçisiyəm!" Allahın elçisi onlara açıq-aydın dəlillər (müxtəlif möcüzələr) gətirdikdə onlar: "Bu, aşkar bir sehrdir!" dedilər. (Saff surəsi, 6)**

İsa peyğəmbərə yaşadığı dövrdə inanıb yardım edən çox az insan olmuşdur. İsa peyğəmbərin düşmənləri onu öldürmək üçün, ona tələ qurmuşdurlar və onu ələ keçirib asdıqlarını zənn etmişdirlər. Amma Allah bizə Quranda hadisənin belə baş vermədiyini və hz. İsanı öldürə bilmədiklərini bildirir:

...Bi**r də: "Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!" dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu öldürdüklərinə yəqinliklə əmin deyillər. (Nisa surəsi, 157)**

İsa peyğəmbərin arxasınca düşmənləri onun söylədiyi həqiqətləri dəyişdirməyə çalışmışdırlar. İsa peyğəmbəri və anası Məryəmi də fövqəlbəşər varlıqlar kimi, hətta daha da irəli gedərək "tanrı" kimi göstərməyə başlamışdırlar. Hələ indiki vaxtda bu yanlış inanclar və davranışlar davam edir. Allah bizə bu inanclarının yanlış olduğunu, Quranda İsa peyğəmbərin öz sözləriylə bildirir:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahı qoyub məni və anamı iki məbud qəbul edin!" demişdin?" İsa deyəcək: "Səni tənzih edirəm! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən**

**onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən!**

**Mən onlara ancaq Sənin mənə əmr etdiyini: "Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!" demişəm. Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni onların arasından götürdükdən sonra isə onlara nəzarət edən Özün oldun. Sən hər şeyə Şahidsən. (Maidə surəsi, 116-117)**

Hz. İsanın arxasınca özünə inananlar artmışdır. Lakin onlar da dəyişdirilib yanlış şeylər əlavə edilən İncilə əməl etdikləri üçün, onlar da bu gün səhv yoldadırlar. Doğru olan yeganə yol, Allahın heç dəyişilməmiş son kitabı olan Quranda bildirilən, Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in yoludur.

## Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)

Son peyğəmbər olduğu və dövrümüzdən təxminən 1400 il əvvəl yaşadığı üçün haqqında ən çox məlumat sahibi olduğumuz peyğəmbər hz. Məhəmməd (s.ə.v)-dir. İnsanlar, hz. Məhəmməd (s.ə.v)-dən əvvəl göndərilən bütün dinləri dəyişdirmişdirlər. Bundan ötrü də, insanların dünya həyatının sonu olan qiyamətə qədər məsul tutulacaqları son kitab olan Quran, Peyğəmbərimiz (s.ə.v)-ə göndərilmişdir. Allah bütün istədiklərini bizə Quran vasitəsilə bildirmişdir.

Peyğəmbərimiz (s.ə.v) də, eynilə digər peyğəmbərlər kimi, yaşadığı cəmiyyətə həqiqətləri çatdırarkən bir çox çətinlik və sıxıntıyla üzləşmişdir. Heç bir mənfəəti olmadığı və qətiyyən heç bir qarşılıq (mükafat) istəmədiyi halda günahlandırılmışdır. Doğulub böyüdüyü Məkkə şəhərindən köç etməyə məcbur edilmişdir. Özünə inanan ilk müsəlmanlara (səhabələr) əziyyət və işgəncələr verilmişdir. Amma Allah inkarçıların, dövrümüzə qədər heç dəyişmədən gəlib çatan İslam dinini yox etmələrinə icazə verməmişdir. Quran, Allahın vəd etdiyi kimi, dövrümüzə qədər tək sözü belə dəyişmədən qorunmuşdur.

Hz. Məhəmməd (s.ə.v)-in bu çağırışı hazırkı dövrdə yaşayan bütün insanlar üçün qüvvədədir. Allah dinini təbliğ etmək üçün göndərdiyi elçilərə tam itaət etməyi əmr etmiş, bir çox ayədə Elçiyə itaətin əslində Özünə itaət olduğunu bildirmişdir. Bundan ötrü də, Peyğəmbərimiz (s.ə.v)-ə itaət etmək, dinin ən əhəmiyyətli və həyati mövzularından biridir və bu itaət, əlbəttə ki, Peyğəmbərimiz (s.ə.v)-in həyatda olarkən bildirdiyi şeylərin tam təslimiyyətlə tətbiq olunmasıyla mümkün olar.

Allah Quranda Peyğəmbərimiz (s.ə.v)-in bütün insanlara nümunə olan üstün əxlaqını, bir çox ayə ilə bizə bildirmişdir. Bu ayələrdən bir neçəsi belədir:

**Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir. (Tövbə surəsi, 128)**

**Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir. (Əhzab surəsi, 40)**

**Allah möminlərə, öz aralarından onlara Allahın ayələrini oxuyan, onları günahlardan təmizləyən, onlara Kitabı və Hikməti öyrədən bir Peyğəmbər göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər. (Ali İmran surəsi, 164)**

Həmçinin Quranda "de" ilə başlayan ayələrlə Allah, Peyğəmbərimiz (s.ə.v)-ə söyləməli olduğu şeyləri bildirmiş, hz. Məhəmməd (s.ə.v) də bu ayələrlə bütün insanlara dini izah etmişdir. Allahdan qorxan və bağışlanmağı istəyən qulların hz. Məhəmməd (s.ə.v)-ə tabe olub, dediklərinə əməl etməsinin lazım olduğu bir ayədə belə bildirmişdir:

**De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir”. (Ali İmran surəsi, 31)**

Yuxarıdakı ayədə də göründüyü kimi, Allahın bizi sevməsini istəyiriksə Peyğəmbərimiz (s.ə.v)-in söylədiklərinə əməl edib, onları tam şəkildə yerinə yetirməliyik.

Peyğəmbərimiz (s.ə.v)-ə verilən ən böyük möcüzənin Quran olduğunu daha əvvəl qeyd etmişdik. Quran insanlara dövrümüzdən 1400 il əvvəl göndərilmişdir. Lakin içində bildirilən elə həqiqətlər var ki, onların dövrümüzdəki elmi kəşflərlə üst-üstə düşdüyü hələ yeni aydın olmuşdur.

Kainatdakı hər şeyi, planetləri, ulduzları, insanları, heyvanları, təbiət qanunlarını Allah yaratmışdır. Rəbbimiz olan Allah, bizim hələ kəşf etmədiyimiz hər şeyi onsuz da bilir. İstədiyi şeyləri Quranda bizə bildirmişdir. Biz yalnız vaxtı gəldikdə bu məlumatları öyrənir və bunların Allahın bir möcüzəsi olduğunu anlayırıq.

Quranın bir çox elmi möcüzəsi var. Burada Quranın elmi möcüzələrinin hamısından deyil, yalnız bir neçəsindən nümunə olması üçün bəhs edəcəyik. (Quranın daha bir çox möcüzəsini öyrənmək istəyirsinizsə, "Quran möcüzələri" adlı kitabımızı oxuya bilərsiniz.)

## Kainatın yaradılışı

Quranda kainatın yaranması belə bildirilir:

**O göyləri və yeri yoxdan yaratmışdır... (Ənam surəsi, 101)**

Əgər xatırlayırsınızsa kitabın birinci fəslində kainatın heç nə olmadığı halda, bundan təxminən 15 milyard il əvvəl partlayış nəticəsində yarandığını ətraflı şəkildə qeyd etmişdik. Yəni kainat heç nə olmadığı bir vaxtda, birdən-birə yaranmışdır.

Bu böyük kəşfin dəlilləri isə, ancaq ötən əsrdə çox müasir texnoloji alətlər sayəsində əldə olundu. Dolayısilə bunun 1400 il bundan əvvəl bilinməsi qeyri-mümkündü. Amma yuxarıdakı ayədə də gördüyünüz kimi, Allah bu həqiqəti bizə heç bir insanın bundan xəbərdar olmadığı, Quran ilk endirildiyi dövrdə bildirmişdir. Bu Quranın bir möcüzəsidir və onun Allahın sözü olduğunun dəlillərindən biridir.

## Kainatın genişləməsi

Kainatın partlayış nəticəsində yaranması və hələ də genişləndiyi hazırkı dövrdə isbat edilmişdir. Bunu da sizə əvvəlki başlıqlar altında şişirdilən bir şar nümunəsi verərək izah etmişdik. 15 milyard il bundan əvvəl yaradılan maddələr bu partlayışın təsiri ilə hələ bir-birlərindən uzaqlaşmağa davam etmişdirlər. Yəni bütün kainat

böyük partlayışdan sonra genişləməyə davam etmişdir və hələ də genişlənir. Müasir astronomiya vəsaitləri ilə aparılan araşdırmalar nəticəsində bu, çox açıq şəkildə müşahidə edilmişdir. Bu həqiqət də 1400 il bundan əvvəl, tək bir insanın belə bundan xəbərdar olmadığı bir vaxtda, Quranda bir möcüzə olaraq bildirilmişdir. Bu mövzuyla əlaqəli ayə belədir:

**Biz göyü qüdrətimizlə yaratdıq və Biz (onu) genişləndirməkdəyik. (Zəriyət surəsi, 47)**

## Orbitlər

Əksəriyyətiniz planetimizin və digər planetlərin orbiti olduğunu bilirsiniz. Əslində yalnız Günəş sistemimizdəki göy cisimlərinin deyil, kainatdakı bütün göy cisimlərinin orbiti var. Yəni hamısı özləri üçün müəyyənləşdirilmiş yol üzərində hərəkət edirlər. Elm adamları bu elmi həqiqəti yaxın bir vaxtda kəşf etmişdirlər. Ancaq dövrümüzdən 1400 il bundan əvvəl, göy cisimlərinin orbitlərindən xəbərdar olunmadığı bir dövrdə, Allah Quranda bu həqiqəti bir möcüzə olaraq belə bildirmişdir:

**Gecəni, gündüzü, günəşi və ayı da yaradan Odur. Hər biri öz orbitində üzür. (Ənbiya surəsi, 33)**

Bu ayədə gördüyünüz kimi, Allah ancaq indiki dövrdə məlum olan elmi bir həqiqəti xəbər verir. Quranın endirildiyi dövrdə insanlar göy cisimlərinin sabit orbitlər üzrə hərəkət etdiklərindən xəbərsizdilər. Amma Allah hər şeyi bilən və istədiyini də qullarına çatdırandır.

## Dünyanın kürə formasında olması

Quranın göndərildiyi dövrdəki astronomiya anlayışına əsasən, dünyanın eynilə bir sini kimi düz olduğu düşünülürdü. Diqqətinizi cəlb edirsə, bugünkü gündə hər kəsin bildiyi bu həqiqət belə o vaxt bilinmirdi. Amma Quranda işlədilən sözlərdən Dünyanın kürə formasında olduğu açıq şəkildə aydın olurdu. Bu məlumatın bizə xəbər verildiyi ayə belədir:

**O, göyləri və yeri bir həqiqət kimi yaratmışdır. O, gecəni gündüzə bürüyür, gündüzü də gecəyə bürüyür.... (Zumər surəsi, 5)**

Bu ayədə işlədilən və dilimizə "bürümək" kimi tərcümə olunan sözün ərəb dilindəki tam mənası; "bir şeyi kürə formalı bir şeyin üstünə bürüməkdir"dir. Deməli, gecə və gündüzün bürüdüyü dünya kürə formasındadır. Halbuki bir qədər əvvəl də söylədiyimiz kimi, Quranın endirildiyi dövrdə ərəblər dünyanın düz olduğunu güman edirdilər. Quranda isə dünyanın kürə formasında olduğuna işarə edilmişdi. Çünki Allah hər şeyin ən doğrusunu insanlara öyrədəndir. Allahın kitabı olan Quranda o dövrdə bildirilən bu həqiqət əsrlər sonra elm adamları tərəfindən kəşf edildi və dünyanın kürə formasında olduğu məlum oldu.

Quran, Allahın sözü olduğu üçün elmi təriflər verilərkən işlədiləcək ən düzgün sözlərdən istifadə olunmuşdur. Hər hansı bir insanın bunları bilib istifadə etməsi qeyri-mümkündür. Amma Allah hər şeyi bildiyi üçün həqiqətləri, bildirmək istədiyi istənilən dövrün insanlarına çatdıra bilər.

## Barmaq izi

Allah Quranda insanın yaradılışından bəhs edərkən xüsusilə barmaq uclarına diqqət çəkmişdir:

**İnsan elə düşünür ki, Biz onun sümüklərini yığa bilməyəcəyik.**

**Mütləq yığacağıq! Biz onun barmaq uclarını bərpa etməyə qadirik. (Qiyamət surəsi, 3-4)**

Tamamilə çürüyüb parçalanmış insan bədəni parçalarını yenidən birləşdirmək Allah üçün çox asandır. İndi barmaq uclarınıza nəzər yetirin. Gördüyünüz kimi, hər birinin özünəməxsus izi var. Hətta əkiz olsanız da, əkizinizin barmaq izləri sizinkindən fərqlidir. Dünyada heç bir insanın barmaq uclarındakı bu cizgilər digər bir insandakına bənzəməz. Yəni bu izlər sanki hər bir insanın şəxsiyyət vəsiqəsi kimidir...

Allah sonsuz qüdrət sahibi olduğu üçün, bu qədər incə fərqlərə qədər bizi təkrar yarada biləcəyini söyləyir. Lakin biz bir şeyi daha öyrənirik. Bu izlərin əhəmiyyəti və hər kəsdə fərqli olduğu, ancaq 19-cu əsrdə öyrənilmişdir. Amma Allah 1400 il bundan əvvəl yuxarıda oxuduğunuz ayə ilə Quranda buna diqqət çəkmişdir. Yəni bu da elmi bir Quran möcüzəsidir.

Daha bunun kimi bir çox şey möcüzəvi şəkildə Quranda bildirilmişdir. Biz burada yalnız bir hissəsindən danışdıq. Bu qədəri belə Quranın Allah sözü olduğunu

çox qəti şəkildə göstərir (Daha çox şey öyrənmək üçün “Quran möcüzələri” adlı kitabımızı oxuya bilərsiniz).

Allah, möcüzələrlə dolu Quran barədə bunları söyləyir:

**Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar. (Nisa surəsi, 82)**

Yuxarıdakı ayədə bildirildiyi kimi, Quranda bildirilən hər şey doğrudur. Elm inkişaf etdikcə hər keçən gün Quranda bildirilən yeni möcüzələr ortaya çıxır. Bu da bizə Quranın Allahın göndərdiyi haqq kitab olduğunu göstərir. Biz isə, Allahın göndərdiyi bu kitabdakı hər şeyi tam şəkildə öyrənməli və öyrəndiklərimizi tətbiq etməliyik.

Allah Qurana tabe olmağımızı bir çox ayəsində əmr etmişdir. Bu mövzudakı ayələrdən bir neçəsi belədir:

**Bu nazil etdiyimiz mübarək bir Kitabdır. Bu halda ona tabe olun və Allahdan qorxun. Ola bilsin ki, sizə rəhm edilsin. (Ənam surəsi, 155)**

**...O (Quran), bir öyüddür. Artıq istəyən, onu “düşünüb-öyüd” alsın. (Əbəsə surəsi, 11-12)**

# Allah bizdən necə bir əxlaq istəyir?

İnsanlar üçün öyüd olan Quran, Allahın sözüdür. Quranın ayələrini oxuyaraq və tətbiq edərək Allahın bəyənəcəyi əxlaqa sahib ola bilərsiniz. Bu çox asandır. Ancaq buna baxmayaraq, insanların böyük hissəsi səhvlik etmiş və Allahın əmr etdiyi gözəl əxlaqdan uzaqlaşdırmışlar. Əgər nə vaxtsa ətrafımızdakı bütün insanlar öz üzərlərinə düşəni edər və Allahın istədiyi əxlaqa sahib olarsa, dünyada da cənnətdəkinə bənzər bir mühit yarana bilər. İndi isə, qısa şəkildə bu gözəl əxlaq xüsusiyyətlərindən bəhs edək.

Hamımız bilirik ki, insanı Allah yaratmışdır. Dolayısilə insanın yaxşı və pis xüsusiyyətlərini də ən yaxşı Allah bilir. Eləcə də insan digər insanları aldada bilər, amma Allahdan hər hansı bir şey gizlətməsi qeyri-mümkündür. Çünki Allah bizim kimi, yalnız insanların görünən xüsusiyyətlərini deyil, onların düşüncələrini də bilir. Deməli, insan Allaha qarşı daim dürüst və səmimi olmalıdır. Quranda belə bildirilir:

**De: "Kökslərinizdə (içinizdə-qəlblərinizdə) olanı gizlətsəniz də, üzə çıxarsanız da, Allah onu bilir. O, göylərdə və yerdə olanları da bilir. Allah hər şeyə qadirdir. (Ali İmran surəsi, 29)**

**Göylərdə və yerdə nə varsa, Allahındır. Siz içərinizdə olanı üzə çıxarsanız da, gizlətsəniz də Allah buna görə sizi hesaba çəkəcək. O, istədiyini bağışlayar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir. (Bəqərə surəsi, 284)**

Allahın, dediyi bütün sözləri eşitdiyindən, etdiyi bütün şeyləri gördüyündən, bütün düşüncələrini bildiyindən xəbərdar olan insan, gizlində də olsa pislik edə bilməz. Deməli, insanların həqiqətən yaxşı insan olmaları üçün, mütləq Allahın varlığına inanmalı və Onun gücünü, hər an hər şeyi gördüyünü və eşitdiyini anlamalıdırlar. Bu, Allahın istədiyi əxlaqı yaşaya bilməyin ən əhəmiyyətli yollarından biridir.

## Allahı sevmək və Ona güvənmək

Ata-ananızın sizi sevməsi xoşunuza gəlir, elə deyilmi? Siz də onları çox sevirsiniz. Onlar sizi qoruyur, sevgi göstərir, ehtiyaclarınızı təmin edir. Onlara güvənirsiniz. Çətin vəziyyətdə qalsanız sizin köməyinizə çatacaqlarını bilirsiniz.

Bəs Allahı nə qədər sevir və Ona nə qədər güvənirsiniz?

Allah, yaratdığı bütün canlıların hər bir ehtiyacını verəndir. Onun sonsuz şəfqəti və mərhəməti sayəsində dünyada nemətlər içində və rahat yaşayırıq.

Məsələn, bizim yaşaya bilməyimiz üçün, Allah Günəşi yaratmışdır. Qidalanmağımız üçün tərəvəzləri, meyvələri, heyvanları yaradan da Allahdır. Bu sayədə çörək, süd, ət və bir-birindən ləzzətli tərəvəzləri və meyvələri yeyərik.

Allah içməyə suyumuz olması üçün də yağışı yaratmışdır. Həmçinin duzlu su olaraq dənizləri yaradan da Allahdır. Dənizlərdəki canlılar da bu sayədə yaşayarlar. Yağışlar olmasaydı yer üzündə nə şirin, nə də duzlu su olardı. Su, həyatımız üçün çox əhəmiyyətlidir. Çünki bildiyiniz kimi, insan ancaq bir neçə gün susuz yaşaya bilər. Allah bədənimizdə də mikroblarla döyüşən müdafiə sistemi yaratmışdır. Müdafiə sistemimiz sayəsində bəsit bir qrip mikrobuna görə ölməyimizin qarşısı alınmışdır.

Bunlardan başqa ürəyimizi heç dayanmadan işləyəcək şəkildə yaradan da Allahdır. Ürəyimiz avtomobil mühərrikləri kimi, hərdənbir dayanmağa ehtiyac duyub, sonra da yenindən işləsəydi, əlbəttə ki, yaşaya bilməzdik. Halbuki ürək insan ölənə qədər illərlə heç dayanmadan işləyir və bu sayədə həyatımızı davam etdiririk.

Elcə də, Allah görməyimiz üçün gözlərimizi, eşitməyimiz üçün qulaqlarımızı, gözəl qoxuları qoxulamağımız üçün burnumuzu və yeməklərin ləzzətini dadmağımız dilimizi yaratmışdır.

Buraya qədər saydıqlarımız Allahın bizə verdiyi saysız nemətlərdən yalnız bir neçəsidir. Allahın bizə verdiyi nemətləri saymaqla qurtara bilmərik. Bizə qarşı çox şəfqətli və çox mərhəmətli olan Allah bir Quran ayəsində bizə belə səslənir:

**O sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur. (İbrahim surəsi, 34)**

Ayədən də başa düşdüyünüz kimi, bu nemətlərə nankorluq etmək, yəni hər şeyi bizə Allahın verdiyini unutmaq, Ona təşəkkür etməmək çox çirkin bir davranış olar. Allah nankorluq edənləri sevməz.

Verdiyi nemətlərə qarşılıq olaraq Allah bizdən ən çox Özünü sevməyimizi və Özünə şükür etməyimizi, yəni təşəkkür etməyimizi istəyir. Rəbbimiz bu əmrini Quran ayələrində belə bildirir:

**Allah sizi analarınızın bətnindən heç nə anlamadığınız bir halda çıxartdı, sizə qulaq, göz və ürək verdi ki, bəlkə şükür edəsiniz. (Nəhl surəsi, 78)**

**Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, Onun nemətinə şükür edin. (Nəhl surəsi, 114)**

**Sizin üçün qulaq, göz və ürəklər yaradan Odur. Siz çox az şükür edirsiniz. (Muminun surəsi, 78)**

Digər bir ayədə isə iman edənlərin ən çox Allahı sevdikləri belə bildirilir:

**İnsanlardan eləələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər. (Bəqərə surəsi, 165)**

Həqiqət budur ki, sizə də, ananıza da, atanıza da, bütün insanlara və canlılara da baxan, qidalandıran, böyüdən, qoruyan Allahdır. Hamımız Ona möhtacıq. Saydıqlarımızdan bu qədərini belə, nə ata-anamız, nə də biz edə bilərik. Elə isə əvvəlcə Allaha güvənib Onu sevməliyik.

Məhz gözəl əxlaq xüsusiyyətlərinin başında, əvvəlcə Allahı sevmək, Ona güvənmək, hər şeyimizi Ona borclu olduğumuzu bilmək gəlir.

## Ətrafımıza qarşı göstərməli olduğumuz gözəl əxlaq

Allah insanlara lağ edən, ərköyün, özünü bəyənmiş, yalançı olmalarını qadağan etmişdir. Dürüst, həlim xasiyyətli, təvazökar, doğru sözlü olmaq Allahın xoşladığı çox əhəmiyyətli xüsusiyyətlərdir.

İnsana əsasən ətrafındakılar təsir edər. Əgər pis yoldaşları varsa, həmin insan da onların pis davranışlarının təsiri altında qala bilər. Halbuki Allaha inanan, Allahın daim özünü gördüyünü bilən bir insan, mühitdən asılı olmayaraq, daim doğru hərəkətlər edər. Yanlış hərəkət edənlərə də gözəl nümunə olar.

Allah səbirli insanları da çox sevər. Ancaq səbir deyildikdə, ağlınıza yalnız bəzi şeylər üçün səbir etmək və ya səbirsiz danışmaq gəlməsin. Çünki Quranda bildirilən səbir, yalnız çətinliklər qarşısında deyil, əksinə insanın həyatının hər anında göstərməli olduğu səbirdir. İman etmiş bir insanın səbri insanlara və ya həmin hadisələrə görə dəyişməz. Məsələn, Allah qorxusu zəif olan bir insan, mənfəət əldə edəcəyi bir insan gözəl davrandığı halda, mənfəət əldə etməyəcəyi insanlara qarşı

tərs rəftarlar göstərə bilər. Ancaq iman edən insan belə pis bir əxlaq göstərməkdən şiddətlə çəkinər. Başqalarının özünə necə davranmasından asılı olmayaraq, daim onlara gözəl davranar. Qəzəblənsə belə qəzəbini boğar və bu halını heç dəyişdirməz, yəni səbir edər.

Allah bir ayəsində səbirdə yarışmağı əmr edir. Ali İmran surəsindəki bu ayə belədir:

**Ey iman gətirənlər! Səbir edin və səbirdə yarışın, sərhəd boyu növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!** (Ali İmran surəsi, 200)

Allah bizə Quranda peyğəmbərlərin səbirli olmalarını gözəl bir nümunə olaraq vermişdir. Məsələn, əgər xatırlayırsınızsa Əyyub peyğəmbərə üz verən sıxıntı çox uzun müddət davam etmişdir. Lakin bu qiymətli insan səbir edərək Allaha dua etmişdir və Allah ona şəfa tapması üçün yol göstərmişdir.

Nuh peyğəmbər də gəmini inşa edərkən özünə istehza edənlərin bu hərəkəti qarşısında səbir edərək, onlara gözəl şəkildə davranmış, daim sakit və gözəl sözlərlə öyüd vermişdir. Bunlar peyğəmbərlərin yaşadıqları gözəl səbir nümunələridir. Allah səbirli qullarını sevdiyini bir çox ayəsində bildirmişdir.

Allah göstəriş edən təkəbbürlü insanları isə sevmədiyini bildirmişdir. İnsanların hamısının maddi vəziyyəti eyni deyil. Bəzilərinin gözəl bir evi və avtomobili var. Bəzilərinin isə heç bir şeyi olmaya bilər. Amma əhəmiyyətli olan gözəl əxlaqlı olmaqdır. Məsələn, bir insanın yaxşı geyimləri olduğuna görə yoldaşlarından üstün olduğunu zənn edərək, onlara xor baxması Allahın xoşlamadığı davranışlardandır. Çünki Allah insanları xarici görünüşlərinə görə deyil, imanlarına görə qiymətləndirməyi əmr etmişdir.

Allah üçün üstünlük meyarı; zənginlik, ehtişamlılıq, böyük güc sahibi olmaq, gözəllik və yaraşıqlılıq deyil. Allah insanları Özünü nə qədər sevdiyinə, nə qədər itaət etdiyinə, Quran əxlaqını nə qədər yaşadığına görə qiymətləndirər. Üstünlük bu meyarlarla bəlli olar. Quranda bununla bağlı olaraq, Qarun adlı bir insanın vəziyyəti bizə ibrət olması üçün bildirilmişdir.

Qarun çox zəngin bir insan idi. O qədər zəngindi ki, sahib olduğu şeylərin təkcə açarlarını daşımaq üçün belə, bir çox insan lazım idi. Ətrafındakı cahil insanlar ona qibtəylə baxır, onun yerində olmağı arzulayırdılar. Ancaq Qarun Allahın sözünü dinləməyən, çox təkəbbürlü və özünü bəyənmiş bir insan idi. Bütün bu zənginliyi ona Allahın verdiyini qəbul etmirdi. Bundan ötrü də, Allah ona elə bir müsibət verdi ki, bir gecədə malıyla birlikdə yox oldu. Onun yerində olmaq istəyənlər ertəsi gün; "yaxşı ki, onun vəziyyətinə düşmədik" deyə sevindilər. Allahın onu cəzalandırdığını

başa düşdülər. Qarundan bu cür pis insanlara bir nümunə olaraq Quranda belə bəhs edilir:

**Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir. (Qəsas surəsi, 76)**

**Qarun öz ehtişamlı zinəti içində xalqının qarşısına çıxdı. Dünya həyatını arzulayanlar dedilər: "Kaş ki, Qaruna verilənin bənzəri bizə də veriləydi! Həqiqətən, o, böyük qismət sahibidir".**

**Elm verilmiş kəslər isə dedilər: "Vay halınıza! İman gətirib yaxşı əməl (Allahın razı olacağı) işlədən kimsə üçün Allahın mükafatı daha xeyirlidir. Buna isə yalnız səbir edənlər nail olarlar".**

**Biz onu öz evi ilə birlikdə yerə batırdıq. Allaha qarşı ona kömək edə biləcək havadarları yox idi. Və özü də özünə kömək edə bilmədi.**

**Dünən onun yerində olmağı arzulayanlar ertəsi gün deyirdilər: "Ah, demək Allah Öz qullarından istədiyi kəs üçün ruzini artırar da, azaldar da. Əgər Allah bizə lütf etməsəydi, bizi də yerə batırardı. Ah, demək kafirlər nicat tapmayacaqlarmış!" (Qəsəs surəsi, 79-82)**

Quranda, Allahın sevmədiyi bildirilən davranışlardan biri də "dedi-qodu etmək", "başqalarının qeybətini qırmaqdır". Biri haqqında dedi-qodu etmək, onun qüsurlarını başqasına deyərək qeybətini qırmaq və ona lağ etmək, Allaha inanan bir insanın etməməli olduğu davranışlardandır. Allah bir insanın qeybətini qırıb, haqqında dedi-qodu etməyi Quranda qadağan etmişdir. Bu mövzu ayədə belə bildirilir:

**Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizin gizli şeylərini araşdırmayın, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir. (Hucurat surəsi, 12)**

Göründüyü kimi Allah ayədə, bir insanın qeybətini qırmağın, ölü qardaşının ətini yemək qədər iyrənc bir şey olduğunu ifadə edir.

Allah gözəl əxlaq xüsusiyyətlərini, gündəlik həyatımızda tətbiq etməyimizi əmr edir. Əslində həyatımız, Allahın bizə göstərdiyi doğru yolla getmək üçün bizə verilmiş fürsətdir. İndiki vaxtda insanların çoxu bu həqiqətdən xəbərsizdir. Allahın əmr və öyüdlərinə uyğun hərəkət etmək əvəzinə, özlərinə başqa rəhbərlər axtararlar. Seyr etdikləri filmlərin, dinlədikləri mahnıların təsiri altında qalaraq yanlış əxlaq anlayışına yiyələnərlər. Məsələn, bir filmdəki mərhəmətsiz və özünü bəyənmiş bir qəhrəmanı izləyən gənclərin, küçəyə çıxdıqları vaxt, bu insana qibtə edərək bənzər davranışlar nümayiş etdirdiklərini, yəqin ki, bilirsiniz. Əslində belə etməklə böyük səhvliyə yol verərlər.

Ağıllı və səmimi insanlar, daim Allahın razı qalacağı şəkildə davranarlar. Bəsit insanlara, bəsit davranışlara qibtə etməzlər. Qibtə etməli və nümunə götürməli olduğumuz insanlar, Allahın elçiləri olan peyğəmbərlərdir. Göstərməli olduğumuz əxlaq isə, Allahın bizim üçün seçib bəyəndiyi gözəl əxlaqdır. Bu əxlaq, mərhəmətli, şəfqətli, bağışlayıcı, təvazökar (alçaq könüllü), səbirli, itaətkar olmağı tələb edir. İnsanlarla sadə mövzular ucbatından mübahisə və dava etmək yerinə, altdan almağı, sakitləşdirici və tolerant olmağı tələb edir. Ana və atamıza qarşı asi və sayğısız olmaq əvəzinə, onlara qarşı daima itaətkar və tərbiyəli olmağı tələb edir. Allah ana və ataya olan hörmətin əhəmiyyətini Quranda bizə belə bildirir:

**Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: "Ey Rəbbim! Onlar məni kiçik yaşlarımdan tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!" de. (İsra surəsi, 23-24)**

Ata-anamıza asi olmamaq, onlara "uf" belə deməmək, onlara qarşı daim mərhəmətli və yumşaq xasiyyətli olmaq, Allahın bizdən istədiyi əhəmiyyətli bir xüsusiyyətdir. Belə davranmaq, həm bizə Allahın sevgisini qazandıracaq, həm də gündəlik həyatımızda olduqca xoşbəxt və rahat olmağımızı təmin edəcək.

Bütün bu gözəl əxlaq xüsusiyyətləri, dinin yaşanması ilə mümkün olar. Dinsiz insanların gözəl əxlaq göstərmələri və bunda qətiyyətli olmaları, yəni səbirli davranmaları isə qeyri-mümkündür. Siz bu insanların vəziyyətinə düşməkdən şiddətlə çəkinin. Allahın Quranda bildirdiyi; **Yoxsa elə güman edirdiniz ki, Allah içərinizdən cəhd edənləri (səy göstərənləri) və səbir edənləri bəlli etmədən siz Cənnətə daxil olacaqsınız?** (Ali İmran surəsi, 142) ayəsini bir an belə unutmayın. Səbirli, təvazökar, comərd, fədakar, bir sözlə, gözəl əxlaqlı olduğunuz təqdirdə,

Allahın sizi daha çox sevəcəyini və sizə verdiyi nemətlərini artıracağını da əsla unutmayın.

# Allaha ibadət

Hər şeyin Yaradıcısı olan Allah sonsuz qüdrət sahibidir. Rəbbimiz bizi də yaratmış və Quranda Özünün istədiyi şəkildə davranmağımızı, Ona qarşı itaətkar olmağımızı əmr etmişdir. Allahın bizə Quranla bildirdiyi və etməyimizi istədiyi hər şey bizim üçün ibadətdir. Namaz qılmaq, oruc tutmaq, Allaha şükür etmək, səbirli olmaq, dua etmək, gözəl davranışlar sərgiləmək bu ibadətlərdən bir neçəsidir.

Amma insanların bir çoxu bu məsuliyyətlərindən xəbərdar olduğu halda, həqiqəti qəbul etmək istəməzlər. Çünki Allaha qarşı itaətkar olub, yəni Onun sözlərini dinləyib, istədiyi şəkildə davranmaq bu insanların qüruruna ağır gələr. Özlərini böyük və güclü gördükləri üçün Allahın sözünü dinləmək istəməzlər. Özlərini Allahın yaratdığını qəbul etməyərək Ona asi olarlar. Sanki hər şeyi özləri nəzarət altında saxlayırmış kimi, təkəbbürlülük və qürurluluq nümayiş etdirərlər. Əgər xatırlayırsınızsa kitabın əvvəlki hissələrindən birində bir cizgi film qəhrəmanı nümunəsini vermişdik. Məhz bu insanlar da eynilə onun vəziyyətinə düşürlər. Bədənlərini, gözlərini, qəlblərini, qulaqlarını, sağlamlıqlarını, bir sözlə, dünyadakı hər şeyi özlərinə verən Allah olduğu halda, Ona nankorluq edər, nemətlərinə şükür etməzlər.

Amma bunu bilin ki, bu insanlar çox peşman olacaqlar. Nankorluq etdikləri, çirkin əxlaqa sahib olduqları üçün, həm dünyada sıxıntı içində yaşayacaq, həm də ölümdən sonrakı axirət həyatlarında böyük peşmançılıq hissinə qapılacaqlar. Dünyada etdikləri nankorluğun cəzasını axirətdə cəhənnəm əzabı ilə cəzalandırılmaqla alacaqlar.

Peşman olmaq və cəhənnəm əzabına düçar olan insanlardan olmaq istəməyən hər insan, Allaha çox şükür etməlidir. Allah bizdən, əvvəlcə Özünə şükr etməyimizi və verdiyi bütün nemətlərə qarşılıq olaraq Ona dua etməyimizi istəyir. Deməli, öz-özünə yaranması qeyri-mümkün olan bu qədər gözəl və mükəmməl nemətləri ətrafınızda hər dəfə gördüyünüzdə, dərhal Allahı xatırlayıb, şükr etməyi unutmayın. Heç bir gözəlliyi görməyən, onun qiymətini bilməyən insanların vəziyyətinə düşməyin.

Allah Quranda şükür etməkdən başqa, bəzi ibadətlər də etməyimizi əmr etmişdir. Namaz qılmaq, oruc tutmaq, zəkat vermək, həccə getmək, Allahın müəyyən vaxtlarda etməyimizi istədiyi ibadətlərdəndir.

Namaz insana, Allahın yaratdığı aciz varlıq olduğunu mütəmadi surətdə xatırlamasına kömək edən, Allahın müəyyən vaxtlarda edilməsini əmr etdiyi bir ibadətdir. Allah Quran ayələrində namazın murdar işlərdən, yəni Allahın razı olmayacağı pis davranışlardan təmizlədiyini söyləyir.

Oruc da Quranda bildirilən bir ibadətdir. Allah ramazan ayı müddətində gündüzləri heç bir şey yeməməyimizi və içməməyimizi əmr etmişdir. Allahın bu əmrini tətbiq edərək, Rəbbimizə itaət etmək üçün aclığa və susuzluğa səbir etmiş olarıq. Beləliklə nəfsimizi tərbiyə etmiş olarıq.

Zəkat vermək isə, insanın sahib olduğu malın bir hissəsini, ehtiyac içindəki insanlara verməsidir. Hər ibadət kimi bu ibadəti yerinə yetirmək də çox əhəmiyyətlidir, çünki xəsis olmamaq və fədakarlıq etmək, Allahın sevdiyi gözəl əxlaq xüsusiyyətlərindəndir. Həmçinin zəkat insanlar arasında yardımlaşmanı artırar və insanın ruhunu tərbiyə edər.

## Dua Allaha daha yaxın olmaq üçün bir vasitədir

Allah Özünə dua etməyimizə çox əhəmiyyət verir. Bir ayəsində; **"de: "Sizin duanız olmasaydı Rəbbim sizə dəyər verərdi mi?"** (Furqan surəsi, 77) deyərək duanın əhəmiyyətinə diqqət çəkmişdir. Bu ayədən anladığımız kimi, insanın Allah qatında dəyər sahibi olması dua etməyinə bağlıdır. Çünki dua edən insan hər şeyi yalnız Allahdan istəmiş olar. Allah hər şeyin əsil sahibidir.

Ehtiyacımız olan hər şeyi bizim üçün Allah yaradar. Nümunə olaraq yaşamağımız üçün lazım yeməkləri nəzərdən keçirək. Tərəvəzləri, meyvələri, toyuqları, inəkləri bizim üçün yaradan Allahdır. Ananızı, atanızı və digər bütün insanları yaradan və işlərini görmələri üçün bədəni, ağlı, məlumatı, gücü, qüvvəti, sağlamlığı, imkanı onlara verən də sonsuz qüdrət sahibi olan Allahdır.

Daha əvvəl qeyd etdiyimiz kimi, Allah bu saydıqlarımızı bizim üçün bir nemət olaraq yaratmışdır. Yəni əslində siz önünüzə qoyulan yeməkdən ötrü Allaha borclusunuz. Sonra bu yeməyi yeyə bilməyinizdən ötrü də Allaha borclusunuz. Bunu bir qədər düşünün. Əgər dişləriniz olmasaydı necə çeynəyib udardınız? Mədəniz olmasaydı necə həzm edərdiniz? Həzm sisteminiz olmasaydı yeməyin olması bir işə yarayardımı?

Deməli, sizin gözəl yeməklər yeyib bəslənməyiniz Allahın icazəsi ilə baş verir. Bizə bütün nemətləri verən Allah olduğu üçün meydana gəlməsini istədiyimiz bir hadisə və ya əldə etmək istədiyimiz bir şey olduğunda bunu özündən istəyəcəyimiz yeganə varlıq da Allahdır. Dolayısilə biz də istədiyimiz bütün şeyləri Rəbbimizə dua etməklə istəməliyik.

Bu mövzunu daha yaxşı anlaya bilməyiniz üçün bir nümunə daha verək:

Məsələn, işığı yandırmaq üçün elektrik açarına basarıq. İndi işığı elektrik açarı meydana gətirdi deyə bilərikmi? Əlbəttə ki, xeyr. Elektrik açarı yalnız bir vasitədir. Eləcə də, elektrik cərəyanını çatdıran kabellər. Allah dünyada bir hadisə meydana gətirərkən daim başqa bir şeyi onun səbəbi olacaq şəkildə yaratmışdır. Suyu

yaratmışdır. Su anbarlarda su vasitəsilə elektrik istehsal olunur. Kabellər elektrik cərəyanını daşıyır. Lampa işığa çevirir. Amma əslində işığı Allah yaradır. Rəbbimiz istəsə bunların heç biri olmadan da işığı yaradar. Amma Allah bizim ağlımızı işlədərək, dərin düşünərək, vicdanımızı hərəkətə keçirərək Özünə çatmağımızı istəyər. Beləliklə də, ağlımızın, düşünmə qabiliyyətimizin artması nəticəsində həqiqətləri qavramağımızı istəyir.

Suyun axması üçün kranı açarsınız. Amma suyu kran yaratdı və ya borular yaratdı deyə bilərikmi? Eynilə elektrik açarı kimi kran da yalnız bir vasitədir.

Məhz hadisələrə bu şəkildə baxmağı öyrənməliyik. O zaman niyə Allaha dua etməli olduğumuz da aydın olar. Çünki hər şeyin Yaradıcısı yalnız Allahdır.

Ona dua və şükür etməyimizi tələb edən şeyləri yazmağa çalışsaq milyonlarla cildlik kitab ortaya çıxardı. Buna görə də, ətrafınızda bunlara əhəmiyyət verməyən insanların olması əsla sizi təsir göstərməsin. Bu insanlar bir qədər əvvəl dediyimiz kimi, ağıllarını işlətmədikləri üçün, düşünməkdən qaçdıqları üçün böyük səhvə yol vermişdirlər.

Bu insanları gözləyən aqibəti, Allah bizə çox açıq şəkildə bildirmişdir. İnsanların ölümdən sonrakı həyatlarında, yəni axirətdə olacaqları yaxşı və ya pis mühit, məhz bu dünyadakı davranışlarından, Allaha yaxınlaşıb uzaqlaşmalarından asılıdır. Hər insan etdiklərinin qarşılığını axirətdə görəcək.

## - Necə dua edə bilərik?

Allahın böyüklüyünü düşünərək, hörmət edərək Ondan istəmək, səmimi-qəlbdən yalvarmaq dua etməyin əhəmiyyətli şərtlərindən biridir. Necə dua edəcəyimizi Allah bizə Quranda bildirmişdir:

**Rəbbinizə yalvara-yalvara və gizlicə dua edin. Şübhəsiz ki, O, həddi aşanları (Allahın sözünə əməl etməyənləri) sevmir. (Əraf surəsi, 55)**

Dua etmək üçün yer və zamanın əhəmiyyəti yoxdur. Hər an Allahı düşünüb dua edə bilərik. Allah Quranda belə buyurur:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir (Ondan danışır), göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən çox Ucasan. Bizi Odun əzabından qoru! (Ali İmran surəsi, 191)**

**Siz (yalnız) Məni yad edin ki, Mən də sizi yad edim! (Yalnız) Mənə şükür edin, Mənə (əsla) nankroluq etməyin!**

**Ey iman gətirənlər! Səbir etmək və namaz qılmaqla Allahdan kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir! (Bəqərə surəsi, 152-153)**

Allah, necə dua etməli olduğumuz mövzusunda bizə Quranda daha çox nümunə vermişdir. Peyğəmbərlərin dualarının və keçmişdə yaşamış möminlərin etdikləri duaların bəziləri ayələrdə bildirilir:

**O dedi: "Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamasan, mənə rəhm etməsən, ziyana uğrayanlardan olaram". (Hud surəsi, 47)**

**O zaman İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini qaldırarkən belə dua etdilər: "Ey Rəbbimiz! Bunu bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən! (Bəqərə surəsi, 127)**

**Ey Rəbbimiz! İkimizi də Sənə təslim olacaq, nəslimizdən də Sənə təslim olan bir ümmət et. Bizə ibadət qaydalarını göstər və bizim tövbələrimizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən! Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir elçi göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları günahlardan təmizləsin! Həqiqətən, Sən üstün və güclü, hökm və hikmət sahibisən!" (Bəqərə surəsi, 128-129)**

**Ey Rəbbim! Sən mənə mülk (və onu idarə etmə imkanı) verdin və mənə sözlərin təfsirini öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur". (Yusif surəsi, 101)**

**..."Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!" (Nəml surəsi, 19)**

**De: "Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir yalnız Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən. (Ali İmran surəsi, 26)**

Musa dedi: “Ey Rəbbim! Köksümü açıb genişlət! İşimi yüngülləşdir! Dilimdəki düyünü aç ki, sözümü anlasınlar! Mənə öz ailəmdən bir köməkçi ver – Qardaşım Harunu! Onun sayəsində mənim gücümü artır! Onu işimə ortaq et (ona da peyğəmbərlik ver) ki, Səni çox təqdis edək və Səni çox zikr edək. Şübhəsiz ki, Sən bizi görürsən!” (Taha surəsi, 25-35)

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: “Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən çox Ucasan. Bizi Odun əzabından qoru! Ey Rəbbimiz! Sən Oda saldığın kəsi rüsvay edərsən. Zalımların köməkçiləri olmaz. Ey Rəbbimiz! Həqiqətən, biz: “Rəbbinizə iman gətirin!” deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al! Ey Rəbbimiz! Öz elçilərinin vasitəsilə bizə vəd etdiklərini ver və Qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!” Rəbbi onlara belə cavab verdi: “Mən, sizlərdən yaxşı işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm... (Ali İmran surəsi, 191-195)

## Axirət həyatı nədir?

Bəzi insanlar ölümü, insanın yox olması kimi anlayarlar. Halbuki ölüm, yalnız dünya həyatı ilə axirət həyatı arasındakı bir keçid, bir qapı kimidir. Qapının arxasında, yəni axirət həyatımızda, cənnətdə və ya cəhənnəmdə bir yerdə olmağımız da Allahın, dünyadakı hərəkətlərimizi bəyənməsindən və ya bəyənməməsindən asılıdır.

Ölüm yalnız bir müddətin sona çatmasıdır. İmtahanın bitdiyini bildirən zəngin çalınması və çıxış qapısının açılması kimi. Allah hər kəsə dünyada ayrı bir imtahan müddəti vermişdir. Bəzilərinin müddəti 30 ildə, bəzilərininki isə 100 ildə bitə bilər. Necə ki, sizin dünyadakı imtahanınızın başlanğıcı olan doğumunuza siz deyil, Allah qərar verdisə, müddətin bitməsinə də Allah qərar vermişdir. Yəni neçə yaşında öləcəyinizi yalnız Allah bilir.

### Ölümü necə qarşılamalıyıq?

Dünyadakı imtahanın bitməsi olan ölüm, iman edən insanlar üçün sevinc vəsiləsidir. Sonunda çox gözəl bir ölkəyə gedəcəyi bir keçid qapısı kimidir. Məktəbdə bir imtahana girən və axırda özünə verilən müddəti tamamlayaraq imtahandan çıxan və müvəffəqiyyətli olan bir insanın sonradan kədərlənməsi çox mənasız olar. Məhz buna görə də, ölən bir insanın arxasınca kədərlənmək eynilə bunun kimi, hətta daha da mənasızdır. Ölən insan çox yaxından tanıdığımız və çox sevdiyimiz biri ola bilər. Ancaq iman edən bir insan ölümün birdəfəlik ayrılıq olmadığını, ölən insanın yalnız dünyadakı imtahanın bitdiyini, bu insanın çox gözəl bir ölkəyə getdiyini düşünər və buna görə davranar. Allahın istəklərinə görə yaşayan müsəlmanları Allahın axirətdə yenidən bir yerə gətirəcəyini və cənnətlə mükafatlandıracağını bilər. Belə olduqda kədərlənmək əvəzinə bu insan üçün böyük sevinc duyar.

Allah bizi dünyadan istədiyi an çıxarda bilər, yəni istədiyi an canımızı ala bilər. İnsanın etməli olduğu şey bu müddət başa çatmadan əvvəl əlindən gələni edib Allahın sevgisini qazanmağa çalışmaqdır.

Nəticə etibarilə bu həqiqəti unutmamalısınız: Ölüm bir son deyil, bir çox gözəlliklə dolu bir ölkəyə getməyimizi təmin edən keçid qapısıdır. Sonsuza qədər davam edəcək əsl həyat, axirətdir. Biz də hər an axirətdəki bu əsil həyatımız üçün hazırlıq görməliyik. Heç imtahandakı bir insan imtahan mühitində sonsuza qədər qalacaqmış kimi səy göstərməyə çalışar mı? Əlbəttə ki, xeyr. Yalnız sualları diqqətlə cavablandırıb imtahandan tezliklə çıxmağı düşünər.

Məhz dünya həyatında da insan Allahın özü üçün hazırladığı imtahanı ən yaxşı şəkildə başa vurub, Allahın razılığını və cənnəti qazanmağı istəməlidir. Hər insanın

dünyadakı ən əhəmiyyətli səyi Allahı sevmək və Onun razılığını qazanmaq üçün çalışmaq olmalıdır. Çünki sonsuz mərhəmət sahibi olan Rəbbimiz Özünə inanan qullarını sevir və hər an qoruyur. Bir ayədə belə buyurulur:

**...Şübhəsiz ki, Rəbbim hər şeyə nəzarət edib onu qoruyur". (Hud surəsi, 57)**

## Dünya həyatı müvəqqətidir

Dünya həyatının müvəqqəti qalınan bir yer olduğunu Allah Quran ayələrində bizə bildirir və əsil həyatın axirət yurdu olduğunu xəbər verir. Dünyada müxtəlif hadisələrlə sınanan və bir gün ölümlə qarşılaşan insan üçün axirət həyatı başlayır. İman edənlər öləcəkləri zaman, qətiyyən canları yanmayacaq, Allahın Quranda bizə bildirdiyi kimi, canları asanlıqla alınacaq. Ölümlə birlikdə başlayan axirət həyatı, sonu olmayan bir həyatdır. İnsanın sonsuz həyatı olan axirət həyatında ruhu yox olmayacaq. Allah bizim üçün bir çox neməti yaradandır. Dünya həyatını da, bizə verdikləri qarşılığında bizim nələr etdiyimizi görmək üçün yaratmışdır. Allah hərəkətlərimizin yaxşı və ya pis olmasına görə axirətdə də bir mükafat olaraq cənnəti və ya bir cəza olaraq cəhənnəmi yaradacaq.

Allah axirətdə hüzuruna gələcək olanların necə qarşılıq görəcəyini Quranda belə bildirir:

**Kim yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər. Kim pislik gətirərsə, ona ancaq gətirdiyinin misli qədər (o qədər) cəza verilər. Onlara haqsızlıq edilməz. (Ənam surəsi, 160)**

Allah insanlara qarşı mərhəmət sahibidir. Mükafat verərkən qat-qat, səxavətlə verər. Halbuki cəzaya layiq olanlar sadəcə etdikləri pis əməllərin tam qarşılığını alacaqlar. Allah heç kəsə haqsızlıq etməz. İnsanlar arasında ədalətsiz davranışlar ola bilər. Günahkar biri dünyada insanları aldatmış və onları yanıltmış ola bilər. Amma günahının qarşılığını Allah axirətdə mütləq verəcək. Ədalət, mütləq Allah Qatında öz yerini tapar. Çünki Allah hər şeyi görür, bilir və qarşılığını ona görə verir.

Axirətdəki həyatımız, belə ki, cənnət və cəhənnəm, insanların ölümlərindən sonrakı həyatlarını keçirəcəkləri iki fərqli yerdir. Bu yerlərlə əlaqədar həqiqətləri biz yenə ən doğru şəkildə Qurandan öyrənə bilərik.

Qurandan öyrəndiklərimiz əsasında cənnəti tanıtmaq üçün belə bir nümunə verək. Çox gözəl mənzərəli yerlərə getmiş və ya filmlərdə heyranlıq oyandıran məkanlar görmüsünüz. Qətiyyən ayrılmaq istəmədiyiniz yerlər və ya bitməsini

qətiyyən istəmədiyiniz yeməklər olmuşdur. Cənnət bütün bu gördüklərinizdən daha gözəl, hətta onlarla müqayisə edilə bilməyəcək qədər gözəl bir yerdir. Cənnətdəki yeməklər dünyadakı heç bir yeməklə müqayisə edilə bilməyəcək qədər ləzzətli və gözəl görünüşlüdür.

Dünyadakı bütün gözəllikləri yaradan Allah ayələrində, səmimi iman edən müsəlmanlar üçün axirətdə çox daha gözəlini hazırladığını söyləyir.

## Dünyadakı çətinliklər cənnətdəki gözəllikləri daha yaxşı qavramağımızı təmin edər

Dünyada bir çox çətinlik yaşayarıq. Xəstə olarıq, hərarətimiz yüksələr, bəzən bir yerimiz qırılar, çox üşüyərik və ya istidən təngə gələrik. Hər gün başımıza daha çox sıxıntı verən hadisələr gələ bilər. Mədəmiz narahat olar, yaşlandıqca dərimiz korlanar, qırışar. Ananızla atanızın gənclik şəkillərinə baxın və bu andakı üzlərini düşünün, aradakı fərqi daha yaxşı anlayacaqsınız.

Allah xüsusi olaraq dünya həyatında bu cür çatışmazlıqlar yaratmışdır. Bunların heç biri cənnətdə yoxdur. Dünyadakı çatışmazlıqlar düşünüldüyü vaxt, cənnətin nə qədər böyük mükafat olduğu daha yaxşı aydın olur. Əgər insan öləndən sonra cənnətə gedərsə bütün bu çətinliklərdən xilas olar. Dünyada xoşlamadığınız şeyləri təkrar düşünün. Sizi narahat edən bu şeylərdən təkcə biri belə cənnətdə olmayacaq.

Cənnət insanın ən çox zövq alacağı, ən çox xoşlayacağı nemətlərlə hazırlanmışdır. Dünyadakı hər bir insanın yeyib-içdiyi gözəl şeylərdən olduqca yaxşısı və gözəli, ən mükəmməli orada hazır vəziyyətdədir. Cənnətdə insan bir daha heç üşüməz, xəstə olmaz, kədərlənməz, qorxmaz, yaşlanmaz. Ətrafında heç bir pis insan olmaz. Çünki pis insanlar artıq cəhənnəmdə, öz pisliklərinə layiq bir yerdədirlər. Cənnətdə isə hər kəs bir-biriylə gözəl sözlərlə danışar. Söyüş işlətməz, əsəbiləşib qışqırmaz, bir-birinin qəlbini sındırmaz. İlk insan olan Adəm peyğəmbərdən bu günə qədər yaşamış olan, Allahın, əxlaqını bəyəndiyi və cənnətə layiq gördüyü nə qədər yaxşı insan varsa artıq hamısı orada bir-birlərinin dostudurlar.

Allah Quranda, cənnətdə çox gözəl və böyük köşklər olduğunu, insanların bu yerlərdə böyük sevinc və xoşbəxtlik içində yaşadığını, insanların bütün istədiklərinin gerçəkləşdiyini xəbər verir. Əslində bütün bu danışdıqlarımız və sizin bunları oxuyarkən düşündükləriniz cənnətdəki gözəllikləri anlatmağa heç kifayət etmir. Bunlar insanın bir qədər düşündüyü vaxt, ağlına gələn bir neçə gözəllikdir, halbuki cənnətdəki bənzərsiz gözəlliklər heç bitməz.

Allah bir ayəsində, insanın istəyəcəyi hər şeyin və daha çoxunun da ona cənnətdə veriləcəyini bildirmişdir. Ürəyinizin istədiyi bir şey düşünün və ya getmək istədiyiniz bir yeri. Cənnətdə bütün bu istədikləriniz Allahın icazəsi ilə bir anda olacaq. Allah bir ayədə cənnətdən belə bəhs edir:

**...Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. (Fussilət surəsi, 31)**

Quranda cənnətdəki sonsuz gözəlliklərdən bəhs edən ayələrdən bir neçəsi belədir:

**Təqva sahiblərinə vəd olunan Cənnətin xüsusiyyəti belədir; orada xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar vardır. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən bağışlanma gözləyir... (Məhəmməd surəsi, 15)**

**İman gətirib xeyirxah işlər görənləri ağacları altından çaylar axan Cənnətdəki yüksək köşklərinə yerləşdirəcəyik. Onlar əbədi olaraq orada qalacaqlar. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir! (Ənkəbut surəsi, 58)**

**Onlar Ədn bağlarına daxil olacaq, orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcəklər. Libasları da ipəkdən olacaqdır. (Fatir surəsi, 33)**

**Həqiqətən də Cənnət əhli bu gün nemətlər içində sevinc və xoşbəxtlik dolu məşğuliyyət içindədirlər. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənmişdirlər. Orada onlar üçün meyvələr və istədikləri hər şey vardır. (Yasin surəsi, 55-57)**

**Dolu budaqları bükülmüş gilas ağacları, üst-üstə düzülmüş meyvələri sallanan banan ağacları, uzanmış kölgəliklər, daimi axan sular və daha bir çox meyvələr içində olacaqlar, özü də tükənməz və qadağan edilməyən meyvələr. Eləcə də, hündür yerlərə sərilmiş döşəklər üstündə olacaqlar. (Vaqiə surəsi, 28-34)**

Allah cənnətə girməyə layiq olan insanların sonsuza qədər orada qalacaqlarını da ayələrində bildirir. Bir ayədə belə buyurulur:

**İman gətirib yaxşı əməl edənlər isə Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyirik (Əraf surəsi, 42)**

Cənnətdəki ən böyük nemət isə, əlbəttə ki, Rəbbimizin sevgisini qazanmış olmaqdır. Bunu bilmək və hiss etmək, insanın yaşaya biləcəyi ən böyük sevinc və rahatlıqdır.

## İnkarçılar üçün cəhənnəm əzabı var

Allaha üsyan edən, Onun varlığını qəbul etməyən insanlar da etdikləri hər şeyin qarşılığını alacaqlar. Dünyada olarkən Allahın varlığını və hər şeyi Onun yaratdığını qəbul etmədikləri, təkəbbürlənib Allahın əmr etdiyi ibadətləri yerinə yetirmədikləri və dünyada sanki üsyan çıxartdıqları üçün, öldükdən sonra da buna uyğun qarşılıq alacaqlar.

Bəzi insanlar bu dünyada bir çox günah işləyərlər. Heç kəsin onları görmədiyi hallarda, bəzən cəza almaya da bilərlər. Amma bu insanlar etdikləri nə qədər gizli olursa olsun, Allahın onları hər an gördüyündən və içlərindən keçəni bildiyindən xəbərsizdirlər.

Hər kəs etdiyi yaxşı və ya pis şeylərin qarşılığını mütləq alacaq. Əsil cəzanı və ya mükafatı axirətdə Allah verəcək. Allah sonsuz ədalət sahibidir və Quran ayələrində edilən ən kiçik bir yaxşılığın belə qarşılığını qat-qat verəcəyini müjdələmişdir. İnsanlar peşman olub, bağışlanma diləyərlərsə onları bağışlayacağını da söyləmişdir. Buna baxmayaraq, Allaha iman etməyən, Quranda bildirilən əmrləri yerinə yetirməyən, yalnız dünya həyatında yaşayacağını, ondan sonra bir həyat olmadığını düşünən insanları da Allah cəhənnəmlə təhdid etmişdir.

Cəhənnəm Allaha üsyan edən təqsirli və günahkar insanların etdiklərinin qarşılığıdır.

Allah bu insanların vəziyyətini Quranda belə bildirmişdir:

**O kəslərə ki, dinlərini əyləncə və oyun etmişdilər və dünya həyatı onları aldatmışdı. Onlar bu günləri ilə qarşılaşmağı unutduqları və ayələrimizi inkar etdikləri kimi, Biz də onları bu gün unudarıq. (Əraf surəsi, 51)**

Cəhənnəmdə, dünyada yaşanılan sıxıntılar və əzablardan daha çoxu var. Cəhənnəm, murdar, qorxu, əzab və bədbəxtlik dolu bir yerdir. Oraya gedən insanlar, cəhənnəmdən çıxmaq üçün Allaha dua edərlər, amma artıq onlar üçün dua etmə və

peşman olma vaxtı keçmişdir. Daha əvvəl sizə Fironun faydasız peşmançılığından danışmışıq. O da boğulacağı əsnada başına gələcəkləri anlamışdı. Amma həmin andakı peşmançılığı fayda verməmişdi. Allah insana ölüm anına qədər fürsət verər. Öldükdən və axirətdə yaşamağa başladıqdan sonra isə peşman olmağın heç bir mənası qalmır.

Cəhənnəmə gedənlər orada yeməyə heç bir şey tapa bilməzlər. Başlarındakı cəhənnəm gözətçilərindən yemək istədikdə onlara darı tikanı, qan və irin verilər. Su içmək istədikdə isə qaynar su verilər. Daim alçaldılarlar, daim dəriləri yanar, hər yerdə od vardır, dar yerlərə həbs edilərlər. Üstəlik bu çox çətin həyat (Allahın diləməsi istisna olmaqla) sonsuza qədər bitməyəcək.

Halbuki səhvlərini, günahlarını görən hər insan, həyatda olarkən etdiklərindən peşman olmalı və Allaha özünü bağışlanması üçün dua etməlidir. Quranda Allah bizə səmimi peşmançılıq çəkəcəyimiz təqdirdə, hər cür günahı bağışlayacağını bildirir. Bu mövzuyla əlaqədar ayə belədir:

**Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı (öz zərərlərinə) həddi aşmış (günah işləmiş) qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir! (Zumər surəsi, 53)**

Buna görə də, insanın axirətdə sonsuz peşmançılıq yaşamaması və cəhənnəmin bitməyəcək əzabından xilas olması üçün, gec olmadan səhvlərini görməsi və Rəbbimizə tövbə etməsi çox əhəmiyyətlidir.

# Son söz

Əziz uşaqlar! Kitabda bura qədər hayatımızla əlaqədar bilməli olduğumuz ən əsas və ən əhəmiyyətli həqiqətləri öyrəndik. "Dünyaya niyə gəldik? Bizi və hər şeyi yaradan Rəbbimiz necə davranışlar etməyimizi istəyir? Allahı razı salmaq üçün necə davranmalıyıq? Axirət həyatı nədir? İnsan niyə cəhənnəmdən qorxmalıdır?" kimi suallar verdik.

Ümid edirik ki, hamınız bu sualların cavablarını çox yaxşı düşünərsiniz. Hələ çox gənc ola bilərsiniz, amma unutmayın ki, bir gün siz də beli bükülmüş qoca bir əmi və ya xala olacaqsınız.

Sizə ölümü düşünmək üçün, hələ çox erkən olduğunu söyləyənlər də çıxa bilər. Amma yenə də unutmayın ki, Allahın sizi yanına alacağı zamanı heç kəs bilə bilməz. Bəlkə 1 gün sonra, bəlkə də 10 il sonra ölümlə qarşılaşacaqsınız. İman edənlərdənsinizsə, ölüm vaxtınız gələndə canınız gözəl şəkildə alınacaq, öldükdən sonra hər cür gözəlliyin olduğu, dünyada sizi narahat edən, xoşunuza gəlməyən heç bir şeyin olmadığı, mükəmməl bir ölkəyə gedəcəksiniz. Qiyamət günündə yaşanacaq dəhşət verici hadisələri yağışlı bir gündə evində oturub pəncərədən çölü seyr edən bir insan kimi seyr edərək, o günün qorxusundan uzaq olacaqsınız.

Bütün bunları düşündüyünüz təqdirdə, Allahın istədiyi kimi bir insan olmaq üçün vaxt itirməyin nə qədər mənasız olduğunu dərhal biləcəksiniz.

Yenə unutmayın ki, dünyada hər şey üçün bir bəhanə, bir səbəb tapa bilər və hətta qarşınızdakı insanları da razı sala bilərsiniz. Amma ölümdən sonrakı axirət həyatında, hər şeyi görən və bilən Allahın qarşısına çıxdıqda qüsurlarınız və günahlarınız üçün ortaya atacağınız hər hansı üzrlü səbəb tapa bilməyəcəksiniz.

Bundan ötrü də, ən gözəl və doğru şəkildə, qətiyyən vaxt itirmədən bütün bu həqiqətlər üzərində düşünməli və Allahın sevdiyi bir insan olmaq üçün hərəkətə keçməlisiniz.

**Onlar dedilər: “Sən Ucasan! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən hər şeyi Bilən, hökm və hikmət sahibisən!” (Bəqərə surəsi, 32)**